# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 avqust 2024-cü il, cümə axşamı

№ 156 (6742)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# "Sea Breeze" gələcəyin şəhəri kimi inkişaf edir



Bax səh. 2

# 6 milyon 422 minə yaxın seçici...

Bax səh. 4

## Regionda sülhün qarantı!



Bax səh. 3

## Sahibkar-vətəndaş məmnunluğunun yeni ünvanı...

### Dövlət Agentliyinin yaradılması rəqabət bazarında sağlam mühiti təmin edəcək

Bax səh. 2

## Davamlı islahatlar kursu - inkişafda yeni keyfiyyət mərhələsi



Bax səh. 3

# Yeni Azərbaycan Partiyası siyasi proseslərin flaqmanıdır

Bax səh. 4

## Qlobal iqlim dəyişikliyinin növbəti fəsadı...

Qlobal iqlim dəyişikliyi hazırda bütün dünya ölkələrini narahat edən mövzulardan biridir. Bununla bağlı davamlı tədbirlər keçirilir, beynəlxalq müstəvidə müxtəlif dövlətlər arasında müzakirələr aparılır. Məlumdur ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə hər zaman özünəməxsus fəaliyyəti ilə seçilib. Ölkəmiz beynəlxalq tədbirlərin keçirildiyi unikal məkandır. Bu il isə Azərbaycan ən böyük beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək.

COP29-un ölkəmizdə keçiriləcəyi ərəfədə paytaxtda davamlı olaraq ekologiya və ətraf mühitin mühafizəsi ilə bağlı mühüm tədbirlər keçirilir. Belə tədbirlərdən biri də dünən baş tutub. "Su İdarəetmə Sistemlərinin iqlimə Dayanıqlı Kənd Təsərrüfatında Rolu: COP29 Dəyirmi Masa Müzakirələri" adlı tədbirdə bütün dünyada aktual mövzuya çevrilən qlobal iqlim dəyişikliyi və onun yaratdığı fəsadlar müzakirə edilib.

**Su ehtiyatlarımız 15 faiz azalıb...**

Bax səh. 8

## Kamera arxasından əbədiyyətə...

Ta qədimdən başıbəlalı Azərbaycanımız çox müharibələrə, savaşlara meydan olub. Vətənin bir qarış torpağını belə canından, qanından üstün bilən xalqımız düşmənlə mübarizədə heç zaman güzəştə getməyib, qurbanlar hesabına öz ədalətini özü bərpa edib.

Hərb sahəsində öz gücünü, canlı qüvvəsini daim artıran vətənimizdə yeri gələndə bütün peşə sahibləri öz işləri, fəaliyyətləri ilə ordumuza dəstək olub, dövlətimizin yanında olub. Ona görədir ki, bu gün şəhidlərimizin arasında ayrı-ayrı peşə sahibləri, müxtəlif yaşdan olanlar da az deyil. Xüsusən, birinci və ikinci Qarabağ müharibələri millətimiz üçün ağır, amma şərəfli imtahan idi. Fəxr edə bilərik ki, biz bir xalq olaraq bu ağır imtahanlardan alnıaçıq, üzüağ çıxmağı bacardıq. Əlbəttə, daha çox ordumuzun, canını, qanını torpaqlarımız uğrunda əsirgəməyən şəhidlərimizin, qazilərimizin sayəsində.

Bir müharibə zamanı cəbhədə gedən savaşla yanaşı, baş verənlərin çəkilib dünyaya çatdırılması, sağlam informasiya savaşının aparılması da çox önəmlidir. Bu, həm də tarixi...

Bax səh. 8

## Bəşəriyyətin sonunu gətirə bilən təhdid...

Bu gün nüvə silahları dünyadakı hər kəsi narahat edən mövzudur. İstifadə edildiyi ilk gündən dağıdıcı və məhvedici gücə malik olan nüvə silahı 21-ci əsrin ən böyük təhlükəsi kimi dəyərləndirilir. Belə ki, insanlara və təbiətə ziyan verən bu silah bütün dünya üçün "ən qorxulu kabusdur". Tarixə nəzər yetirdikdə görürük ki, nüvə silahından istifadənin qarşısının alınmasına yönələn bir sıra addımlar atılıb. Amma təəssüf ki, hələ də "nüvə təhdidi" öz aktuallığını qoruyub saxlayır.

Xüsusilə, son illərdə bu təhdid yenidən aktiv şəkildə ortaya çıxıb. Qlobal güclərin savaşlarda tam üstünlük qazanmaq üçün nüvə silahı ritorikasına müraciəti isə gündən-günə artır və bu qəbuledilməzdir.

Bəşəriyyəti məhv etməyə nail olan bu real təhlükə barədə söhbət açmağımızın məqsədi var. Belə ki, avqustun 29-u Nüvə sınaqları əleyhinə beynəlxalq fəaliyyət günü kimi qeyd olunur. Bu gün 2009-cu il dekabrın 2-də BMT Baş Məclisinin 64-cü sessiyasında təsis edilib. Təhlükəsiz dünya yaradılması üçün...

Bax səh. 8

## Avropa miqrant axınının qarşısını necə alacaq?



Bax səh. 7

# Kremldən zəng...

## Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub



Avqustun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlət başçıları Prezident Vladimir Putinin Azərbaycana dövlət səfərinin nəticələrindən məmnunluqlarını ifadə ediblər. Prezidentlər səfər çərçivəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi istiqamətində aparılan fəaliyyətin Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq və strateji müttəfiqlik münasibətlərinin daha da gücləndirilməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Telefon söhbəti əsnasında Cənubi Qafqaz regionunda vəziyyət müzakirə olunub. Vladimir Putin Rusiyanın Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dəstək verməyə hazır olduğunu deyib.

Telefon danışığı zamanı Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin açılması ilə bağlı fikir mübadiləsi aparılıb.

# “Sea Breeze” gələcəyin şəhəri kimi inkişaf edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Sea Breeze” istirahət mərkəzində LANDAU Məktəbinin və “The Grand” apart hotelinin açılışı mərasimində...













Avqustun 28-də Bakıda “Sea Breeze” istirahət mərkəzinin ərazisində yaradılan “LANDAU School” Təhsil Kompleksinin məktəbinin və “The Grand” apart hotelinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tədbirdə iştirak ediblər.

“Ağalarov Development” şirkətinin təsisçisi Emin Ağalarov Prezident İlham Əliyevə görülən işlər, o cümlədən “Sea Breeze”in əsas layihələri - 231 şagird üçün nəzərdə tutulmuş “LANDAU School” Təhsil Kompleksinin “Sea Breeze”dəki məktəbi və 450 şagird üçün nəzərdə tutulmuş “SABAH.school” barədə məlumat verdi.

Bildirildi ki, məktəb binalarında kompüter sinifləri, psixoloq kabinetləri, laboratoriyalar, açıq və qapalı idman meydançaları var. Təlim Britaniya kurikulumuna uyğun olaraq ingilis dilində aparılır. LANDAU Məktəb kompleksinin ərazisində orta ümumi təhsillə yanaşı, məktəbəqədər təhsil üçün ayrıca bina da var. Ümumilikdə, təhsil kompleksi 1100-dən çox şagird üçün nəzərdə tutulub.

Ərazidəki ən böyük apart otel - “The Grand” da istifadəyə verildi.

Diqqətə çatdırıldı ki, bura il boyu yaşamaq və ya kirayə vermək üçün nəzərdə tutulmuş 224 mənzil və 3 penthausdan ibarətdir. Təmirli 100 mənzil əşyalarla birlikdə artıq satılıb. Apart otelin ərazisində iki hovuz, üç restoran, konfrans zalı, butiklər, SPA mərkəzi və qəbul xidməti fəaliyyət göstərir.

Qeyd olundu ki, ekoloji cəhətdən təmiz, müasir və memarlıq həlləri baxımından texnoloji layihə olan “Sea Breeze” gələcəyin şəhəri kimi inkişaf edir. Nəhəng layner formasında ilk mənzillərdən ibarət flaqman daşınmaz əmlak layihəsi olan “Caspian Dream Liner” süni adada tikiləcək. Bu nadir memarlıq quruluşu sayəsində “Sea Breeze” qlobal turizm xəritəsində daha da cəlbedici məntəqəyə çevriləcək.

İrimiqyaslı layihə fondunun hazırlanması üzərində bir neçə memarlıq bürosu işləyir, o cümlədən dünyaşöhrətli memarlar cəlb olunur. Ekspertlər kurort şəhərini bu gün dünyada öz ərazisində bu qədər çoxlu sayda daşınmaz əmlakı birləşdirən yeganə layihə adlandırırlar.

“Sea Breeze”in beynəlxalq tərəfdaşları arasında nüfuzlu, qlobal otel şəbəkələri var ki, onlar yaxın illərdə sahildə otel kompleksləri açmağı planlaşdırırlar.

İl boyu yaşamaq, rahatlıq və yaxşı istirahət üçün hər cür şərait yaradılan “Sea Breeze”də beynəlxalq məktəb və LANDAU uşaq bağçası kimi təhsil müəssisələri, tibb ocaqları, biznes mərkəzi və tibbi-sağlamlıq kompleksi tikinti mərhələsindədir. Həmçinin ərazidə həm uşaqlar, həm də böyüklər üçün ustad dərsləri, mühazirələr və praktik məşğələlərin keçirildiyi incəsənət mərkəzi yerləşir.

Qeyd edək ki, “Sea Breeze” kurort şəhəri Xəzər dənizinin sahilində, Bakının mərkəzindən 30 dəqiqəlik məsafədə yerləşir. 500 hektar sahədə artıq 1,5 milyon kvadratmetrdən çox kommersiya obyekti və mənzillərdən ibarət daşınmaz əmlak satılıb və istifadəyə verilib. İstirahət zonaları, parklar və çimərlik üçün 150 hektardan çox ərazi ayrılıb. Bu gün daha 1,5 milyon kvadratmetr sahə reallaşdırma mərhələsindədir və yaxın vaxtlarda daha 2 milyon kvadratmetr sahənin tikintisinə başlanılacaq. Üç il ərzində layihənin ümumi sahəsi 5 milyon kvadratmetrdən çox təşkil edəcək və 100 min daşınmaz əmlak obyekti tikilib istifadəyə veriləcək. Sakinlərin və turistlərin ümumi sayı 300 min nəfərə çatacaq, iş yerlərinin sayı isə 20 minə qədər artacaq. Hazırda burada 6560 nəfər işlə təmin olunub. Layihəyə qoyulan investisiyalar 7 milyard dollar təşkil edir.

Cari yay mövsümündə akvapark, lunapark və sirk, həmçinin kurort şəhərciyinin yaxınlığında yeni yaradılan pulsuz çimərlik zonası da daxil olmaqla, yeni çimərlik zonaları açılıb. Həmçinin ərazidə 1 milyona yaxın bitki və ağac əkilib. Hazırda yaşıllıqların sahəsi 150 hektara çatır.

Bu ilin noyabrında ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “Sea Breeze” landşaft parkının salınması təşkil olunacaq - tədbirin qonaqları, Azərbaycanın və beynəlxalq şirkətlərin rəhbərləri, siyasətçilər və mədəniyyət xadimləri ağacların əkilməsində iştirak edəcəklər.

# Sahibkar-vətəndaş məmnunluğunun yeni ünvanı...

## Dövlət Agentliyinin yaradılması rəqabət bazarında sağlam mühiti təmin edəcək

**Prezident İlham Əliyevin imzaladığı “Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmana əsasən, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb. Agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirəcək.**

### Biznes mühitinin əlverişliliyi və azad sahibkarlığın təşviqi artırılacaq...

Ölkəmizdə sahibkarlıq mühitinin inkişafına təkan vermək, dövlət qurumları tərəfindən buna müvafiq şərait yaratmaq, dəstək vermək Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün ölkədə həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsidir. Xüsusilə ölkədə yaranan yeni iqtisadi mühitdə rəqabətə dəstək verilməsi, rəqabət mühitinin qorunması antiinhisar orqanı qarşısında duran mühüm vəzifələrdəndir. Məhz bu baxımdan Yeni Agentliyin yaradılması ölkədə həyata keçirilən müasir iqtisadi islahatların və yeni çağırışlar əsasında daha da güclənən biznes-dövlət münasibətlərinin yaxın partnyorluq çərçivəsində inkişafının mühüm nəticəsi hesab edilə bilər. Eyni zamanda, biznes mühitinin əlverişliliyinin artırılması və azad sahibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb edən antiinhisar fəaliyyətinin təkmilləşdirilməsi, bazar iştirakçılarının hüquq və mənafelərinin daha müasir formatda qorunması, eləcə də rəqabət sektorunda meydana çıxan yeniliklərin icrası çevik və operativ dövlət orqanının yaradılmasını labüd edirdi.

Agentliyin təsis olunmasını şərtləndirən əsas amillərdən biri də ölkədə biznes mühitinin əlverişliliyinin artırılması və azad sahibkarlığın təşviqi baxımından yeni islahatların həyata keçirilməsidir. Bu mühüm islahatların tərkib hissəsi kimi 2024-cü il iyulun 1-dən qüvvəyə minən Rəqabət Məcəlləsindən irəli gələn yeni vəzifələri qeyd etmək mümkündür. Belə ki, məcəllədə bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarəti, eləcə də bu sahədə rəqabət orqanının səlahiyyətləri ilə bağlı müddəalar da öz əksini tapıb ki, bu da müasir çağırışlara uyğun fəaliyyətin təmin edilməsini nəzərdə tutur. Bazar subyektləri tərəfindən rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətinin rəqabət orqanı, yəni Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən həyata keçirilməsi müəyyən edilib. Bazarda rəqabətin təmin olunması, qorunması və inkişafına daha effektiv nəzarətin təşkil edilməsi üçün rəqabət orqanının statusu, vəzifələri və hüquqları, habelə bazar subyektlərinin hüquq və vəzifələri də Məcəllədə öz əksini tapıb. Bundan əlavə, sağlam rəqabətin inkişafını stimullaşdırmaq, maneələri aradan qaldırmaq və ya onları azaltmaq məqsədilə rəqabət orqanı tərəfindən yoxlamalar keçirilir. Yoxlamalar bazar subyektlərində rəqabət qanunvericiliyinin pozulması əlamətləri aşkar edildikdə, işə baxılma zamanı zərurət yarandıqda, aparılan araşdırmalar zamanı əlavə sübutlara zərurət yarandıqda aparılır.

Yeni meyarlar və çağırışlar isə dövlətin funksiyalarının icrası və tənzimləmə səlahiyyətlərinin daha da işləkliyini, çevikliyini tələb edir. Xüsusilə də ölkəmizdə azad və sağlam rəqabət mühitinin təmin edilməsi və inkişafına şəraitin yaradılması, bazarlarda rəqabətin pozulması hallarının qarşısının alınması, eləcə də bu istiqamətdə nəzarət tədbirlərinin həyata keçirilməsi üçün daha çevik və funksional dövlət orqanının fəaliyyəti labüddür. Xidmətin bazasında daha institusional qurumun - Dövlət Agentliyinin yaradılması bu sahədə idaretmənin və dövlət nəzarətinin təkmilləşdirilməsi, eləcə də optimallaşdırılması baxımından mühüm rol oynayacaq. Agentlik tənzimləyici orqan kimi daha effektiv qərarların qəbul edilməsi, təkmil bazar monitorinqi və araşdırma aparmasını təmin etməklə, ölkədə sağlam rəqabətin və rəqabət mədəniyyətinin təşviqinə xidmət edəcək.

### İstehlakçıların hüquqları daha etibarlı qorunacaq...



Dövlət Agentliyi, səlahiyyətləri çərçivəsində istehlakçı hüquqlarının müdafiəsi istiqamətində də təsirli addımlar atacaq, istehlakçı müraciətlərini daha təfərrüatlı araşdıraraq zəruri tədbirlər görəcək, o cümlədən istehlakçıların lazımi keyfiyyətli mal, xidmət əldə etmək hüququnu qoruyacaq, qüsurlu və ya saxtalaşdırma halı aşkar edilən malların dəyişdirilməsi, qaytarılması ilə bağlı tələb irəli sürmək imkanlarının müdafiəçisinə çevriləcək. Mülki Məcəllənin, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Qanunun müvafiq maddələrinə, eləcə də “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin qərarına uyğun olaraq istehlakçılara dəyən zərərlərin ödənilməsi istiqamətində inzibati tədbirlər görəcək.

Agentlik, həmçinin dövlət satınalmaları sahəsində də çevik və operativ idarəetmə sistemini quraraq bu sahədə optimallaşma tədbirlərini həyata keçirəcək, elektron satınalma üzrə şəffaflıq imkanlarını təmin edəcək, eləcə də sahibkarlıq subyektlərinin satınalmalarda iştirakını stimullaşdıracaq.

### Rəqabəti pozanlara qarşı sərt tədbirlər görüləcək

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi istehlak bazarına nəzarət tədbirləri çərçivəsində rəqabəti pozan subyektlərə və təbii inhisarlara qarşı ən sərt tədbirlər görmək səlahiyyətlərinə də malik olacaq. Təbii inhisar subyekti olan bir sıra müəssisələrin sahibkarlarla münasibətlərinin düzgün qurulması və qanunvericilik səviyyəsində həyata keçirilməsi xüsusi diqqətdə saxlanılacaq, eləcə də sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı düzgün olmayan, yaxud qanunvericiliklə uyğunlaşmayan hansısa tələblər qoyulduğu təqdirdə, həmin tələblərin aradan qaldırılması, yaxud daxili normativ sənədlərin mövcud qanunvericilik aktlarının müddəalarına uyğunlaşdırılması məsələsi qaldırılacaq.

Həmçinin sahibkarlıq subyektləri də öz fəaliyyətlərində qarşılaşdıqları rəqabəti pozan, yaxud rəqabətə uyğun gəlməyən, onların fəaliyyətinə hansısa maneə yaradan hərəkətlərlə rastlaşdıqda, eləcə də təbii inhisarlar tərəfindən fəaliyyətinə hər hansı bir maneçilik yaradıldıqda Dövlət Agentliyi onların da mənafeyini qoruyacaq. Həmçinin rəqabəti pozan hansısa bazar iştirakçısı müəyyən edildikdə də təbii inhisar subyektləri də daxil olmaqla, onlara qarşı qanunvericiliyin imkan verdiyi ən sərt tədbirlər görüləcək.

Beləliklə, Dövlət Agentliyi müasir fəaliyyət meyarları və prinsiplərinə əsaslanaraq ölkədə azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini təmin edəcək, biznes və rəqabət sektorunda çalışan bazar iştirakçıları üçün məsuliyyətli fəaliyyət mühiti yaradacaq. Bu isə sahibkarlıq fəaliyyəti də daxil olmaqla, iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradacaq, bu prosesdən həm sahibkarlıq subyektləri, həm də geniş ictimaiyyət faydalanacaq.

*Elbrus CƏFƏRLİ*

# Regionda sülhün qarantı!

## Azərbaycan-Türkiyə əməkdaşlığının əhatə dairəsi daha da genişlənir

İki qardaş dövlət olan Azərbaycan və Türkiyə sıx təmaslar qurmaqla ortaq maraqlarımıza xidmət edən xarici siyasətlərini uzlaşdırırlar və beynəlxalq səviyyədə koordinasiyalı fəaliyyətlər həyata keçirirlər. Elə bu günlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə işgüzar səfərdə olub. Səfər çərçivəsində Ceyhun Bayramov bu ölkənin xarici işlər naziri Hakan Fidanla görüşüb.

Görüş zamanı tərəflər iki ölkə arasında mövcud müttəfiqlik münasibətlərinin siyasi, təhlükəsizlik, müdafiə, iqtisadi-ticari, enerji, nəqliyyat-kommunikasiya, humanitar və s. aspektlərini, habelə regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər. Xatırladaq ki, Azərbaycan və Türkiyənin xarici işlər nazirlərinin bundan öncəki görüşü iyulun 5-də Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşü çərçivəsində baş tutmuşdu.

### Müttəfiqlik münasibətləri praktiki nəticələr verir

Görüşdə Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq əlaqələrinə əsaslanan strateji müttəfiqliyin inkişafında iki ölkə liderlərinin arasında mövcud siyasi dialoqun, qarşılıqlı səfər və təmasların əhəmiyyəti vurğulanıb. Azərbaycan-Türkiyə əlaqələrinin dərinləşməsində liderlərin sıx təmasları və apardıqları aktual müzakirələr mühüm rol oynayır.

Tarixi bağlara, ənənələrə, etiqad eyniliyinə, dilin, mədəniyyətin, həyat tərzinin hədsiz oxşarlığına və digər ortaq cəhətlərə malik olan Azərbaycan - Türkiyə dostluğu bu gün elə bir yüksək zirvədədir ki, ona heç kəsin əli çata bilməz. Bu, Şuşa Bəyannaməsi ilə müttəfiqlik münasibətlərini rəsmən təsdiqləyən hər iki ölkənin gücünə-güc qatan, xalqlarımızı qürrələndirən, özünəgüvənli edən, düşmənlərimizi isə paxıllıqdan çatladan bir dostluq nümunəsidir.

Tarixi Şuşa Bəyannaməsi ilə müttəfiqlik münasibətləri rəsmiləşdikdən sonra çoxvektorlu Azərbaycan-Türkiyə əməkdaşlığının əhatə dairəsi daha da genişlənir. Xarici işlər nazirlərinin görüşündə də müttəfiqliyimizi təsbit edən tarixi Şuşa Bəyannaməsinin artıq bir sıra sahələrdə əməkdaşlıq perspektivlərinin inkişafında praktiki nəticələr verdiyi məmnunluqla qeyd olunub.

Xüsusilə də son vaxtlarda ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələri, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Azərbaycan və Türkiyə yaxın perspektivdə qarşılıqlı ticarət dövriyyəsinin həcmini 15 milyard dollar səviyyəsinə çatdırmaqla bağlı hədəf müəyyənləşdiriblər. Artım dinamikası təsdiqləyir ki, bu hədəf tam realdır. 2023-cü il ərzində Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin ümumi həcmi 2022-ci ilə nisbətdə 31 faiz və ya 1,8 milyard ABŞ dolları artaraq 7,65 milyard dolları üstələyib. Ötən il Azərbaycandan Türkiyəyə 5,3 milyard dollar dəyərində məhsul ixrac edilib ki, bu da 2022-ci ilin göstəricisindən 51,2 faiz və ya 1,81 milyard dollar çoxdur. Türkiyədən Azərbaycana idxal edilən məhsulların dəyəri isə 2,29 milyard dollar təşkil edib.

İnvestisiya qoyuluşundakı yüksək dinamika da məmnunluq doğurur. İndiyə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına təxminən 20 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 15 milyard ABŞ dolları investisiya qoyub. Hazırda Türkiyədə 2 000-ə yaxın Azərbaycan, Azərbaycanda isə 4 100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir

İki qaraş ölkə enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlığın nadir nümunələrini yaradıblar. İndiyədək Azərbaycanın və Türkiyənin tərəfdaş dövlətlərlə birgə reallaşdırdıqları nəqliyyat və enerji layihələri böyük regional və qlobal əhəmiyyətə malikdir.

Eyni zamanda, ölkələrimizin liderləri davamlı olaraq daha sıx yaxınlaşmanı hədəfləyən təşəbbüslər irəli sürürlər. Türkiyə - Azərbaycan Unversitetinin yaradılması buna misaldır. Görüşdə Azərbaycan və Türkiyə liderlərinin ideya müəllifləri olduğu Türkiyə-Azərbaycan Universitetinə bu il tələbə qəbulunun həyata keçirilməsi, yüksək balla tələbələrin qəbulu məmnunluqla qeyd edilib. Universitetə böyük maraq təqdir olunub, təhsil sahəsində əməkdaşlığa əlavə stimul yaradacağı vurğulanıb.

### Çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq



Yüksək səviyyədə olan Azərbaycan - Türkiyə münasibətlərində çoxtərəfli platformalarda əməkdaşlıq ayrıca və çox önəmli bir istiqamət kimi diqqət çəkir. İki qardaş ölkə nüfuzlu beynəlxalq təşkilatlarda uğurla təmsil olunurlar və həmişə də bir-birinin ədalətli mövqeyini dəstəkləyirlər. Xarici işlər nazirlərinin görüşündə ikitərəfli əməkdaşlığımızın BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və s. kimi regional və beynəlxalq təşkilatlarla yanaşı, bir sıra digər çoxtərəfli formatlar çərçivəsində davam etdirildiyi diqqətə çatdırılıb. Ölkələrimizin, xüsusilə, ailəmiz hesab etdiyimiz Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə əməkdaşlığın inkişafını diqqət mərkəzində saxladığı qeyd edilib. Bununla yanaşı, üçtərəfli və dördtərəfli formatlarda əməkdaşlığın regional sabitlik və təhlükəsizliyə ciddi töhfələr verdiyi bildirilib.

Azərbaycanın və Türkiyənin xarici siyasətində üst-üstə düşən bir sıra prioritetlər var. Məsələn, hər iki ölkə regional əməkdaşlığın dərinləşməsinə böyük önəm verir. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan 3+3 formatının ideya müəllifləridirlər. Bu format daxilində əməkdaşlığın genişləndirilməsi regiona kənar güclərin ayaq açmasının qarşısını alacaq. Bölgədə davamlı sülhün, təhlükəsizliyin, etimad mühitinin bərqərar olmasının yolu da məhz bu format daxilində sıx əməkdaşlıqdan keçir.

Diqqətəlayiq haldır ki, həm Azərbaycan, həm də Türkiyə Türk Dövlətləri Təşkilatının güclənməsinə çalışırlar və buna praktiki müstəvidə öz töhfələrini verirlər. Türk dünyası böyük coğrafiyadır, artan əhalidir, zəngin resurslardır, güclü iqtisadiyyatdır. Qlobal miqyasda mühüm əhəmiyyət daşıyan Orta Dəhliz məhz Türk coğrafiyasından keçir. Transxəzər marşrutu ilə həmçinin Şimal - Cənub və Şərq - Qərb dəhlizlərinə keçid etmək mümkündür ki, bu da Türk dünyası üçün əlavə dvidentlər qazandırır. Azərbaycan - Türkiyə dostluğu, müttəfiqliyi bütün Türk dünyası üçün bir örnək nümunəsidir.

### Azərbaycan və Türkiyə regionda sülh istəyirlər

Nazirlərin görüşündə, həmçinin postmüharibə dövründə Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesinə diqqət çəkilib. Qalib Azərbaycanın yaratdığı reallıqlar regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün əlverişli imkanlar formalaşdırıb. Gələcək naminə bu fürsətlərdən maksimum səmərə ilə istifadə olunmalıdır. Burada Azərbaycanın mövqeyi birmənalıdır. Ölkəmiz müharibə səhifəsini birdəfəlik bağlamaq istəyir. Buna görə də qarşı tərəfə davamlı olaraq sülh təklifləri verir. Ancaq eyni sözləri məğlub Ermənistan barəsində demək mümkün deyil. Bu ölkə sülhyaratma prosesini də əslində manipulyasiya predmetinə çevirib. Sözdə sülhə tərəfdar olduğunu bildirən bu ölkə reallıqda revanşizm mövqeyindən çıxış edir, silahlanmaya rəvac verir və havadarlarının təhriki ilə yeni müharibə hazırlıqları görür. Görüşdə qarşı tərəf, o cümlədən postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, regional sülh və normallaşma gündəliyinə təhdidlər barədə məlumatlandırılıb. Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın, eləcə də qardaş Türkiyənin ərazi bütövlüyünə davam edən iddiaların, habelə Ermənistanın kütləvi hərbiləşmə siyasətinin sülh prosesinə əsas hədələr olduğu diqqətə çatdırılıb.

"Azərbaycan ilə Türkiyənin mövqeyi vahiddir, birdir. Qarşılıqlı dəstək, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərimiz davam edəcək. Ölkələrimizin bu siyasəti bölgəmizə sülh, əmin-amanlıq və sabitlik gətirəcək". Bu fikri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Hakan Fidanla Ankarada keçirdiyi birgə mətbuat konfransında səsləndirib.

Ermənistanla danışıqlar prosesinə nəzər salan Azərbaycanın XİN başçısı bildirib ki, sülh prosesinin başa çatdırılması üçün əsas əngəl məhz Ermənistanın konstitusiyasında Azərbaycan və Türkiyəyə qarşı olan ərazi iddialarıdır.

Nazir son zamanlar regionda müşahidə olunan narahatedici tendensiyaya da nəzər salıb: "Ermənistan sürətlə silahlanır və bu prosesə töhfə verən üçüncü ölkələr var. Bu çox yanlış siyasət bölgəmiz üçün əlavə təhdid mənbəyidir".

Ceyhun Bayramov vurğulayıb ki, rəsmi Bakı bütün prosesləri diqqətlə izləyir və addımlarını Türkiyə ilə koordinasiya edir. Türkiyənin xarici işlər naziri Hakan Fidan da oxşar fikirləri bölüşüb. O bildirib ki, Türkiyə və Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunmasının tərəfdarıdır. Türkiyəli nazir əminliyini ifadə edərək deyib ki, ölkələrimizin qardaşlığı bundan sonra da regional sabitliyə öz töhfəsini verəcək.

*Mübariz FEYİZLİ*

# Davamlı islahatlar kursu - inkişafda yeni keyfiyyət mərhələsi

## İlham Əliyev: İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin

Müstəqil Azərbaycan öz siyasətini ölkənin reallıqlarına və dəyişən çağırışlara uyğun qurur. Zaman irəlilədikcə tələblər dəyişir və ölkə həyatının ayrı-ayrı sahələrində yeni transformasiyalara ehtiyac yaranır. Azərbaycanın nümunəvi inkişaf modelinin ən səciyyəvi xüsusiyyətlərindən biri ondan ibarətdir ki, respublikamız qarşıya çıxan çağırışları vaxtında reallaşdırılan genişməzmunlu islahatlarla qarşılayır. Zamanında müdrik dövlət xadimi Heydər Əliyev tərəfindən irəli sürülmüş təməl prinsipləri - dövlətçilik, qanunun aliliyi, azərbaycançılıq, varislik və təkamül, konstruktiv əməkdaşlıq və vətəndaş həmrəyliyi, sosial ədalət çoxşaxəli islahatların əsaslarını təşkil edib. Yeni Azərbaycan Partiyasının (YAP) seçki platformasında bildirildiyi kimi, sistemli və davamlı xarakter daşıyan siyasi, hüquqi və sosial-iqtisadi islahatlar Azərbaycanın tərəqqisini və qarşıda duran bir çox milli hədəflərin reallaşmasını mümkün edib.

Heydər Əliyev yolunu uğurla və inamla davam etdirən Prezident İlham Əliyev islahatlar kursunun əhatə dairəsini getdikcə daha da genişləndirir. Dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi və strateji baxışları əsasında reallaşdırılan islahatlar davamlı olaraq ölkənin inkişafında keyfiyyətcə yeni mərhələ açır.

### İqtisadi məzmunlu islahatlar

Hər bir ölkə strateji məqsədlərinə çatmaqdan ötrü ilk növbədə güclü, rəqabətədavamlı iqtisadiyyat qurunculuğu qayğısına qalmalıdır. Siyasi müstəqilliyi, milli təhlükəsizliyin təmin olunmasını şərtləndirən əsas amil qismində məhz iqtisadi müstəqillik çıxış edir. Özünün iqtisadi müstəqilliyini tam təmin etməsi Azərbaycanın böyük uğurudur. Bu gün respublikamızın heç bir dövlətin, beynəlxalq maliyyə qurumlarının yardımına ehtiyacı yoxdur. Ölkəmiz əksər irimiqyaslı layihələri dövlət investisiyaları hesabına reallaşdırmaq iqtidarındadır. Təkcə son illərin böyük uğurlarına diqqət yetirək. Azərbaycanın qurduğu qüdrətli Ordu 44 günlük müharibəni Böyük Zəfərlə tamamladı. Müharibə başa çatandan dərhal sonra, fasilə verilmədən işğaldan azad edilmiş ərazilərin bərpasına, burada müasir infrastruktur quruculuğuna, şəhər və kəndlər salınmasına start verildi. Hazırda işğaldan azad edilmiş 11 min kvadratkilometrdən artıq ərazi böyük tikinti-quruculuq meydanını xatırladır. Azərbaycan bütün layihələri daxili imkanları hesabına reallaşdırır ki, bunun da arxasında güclü iqtisadiyyat, geniş maliyyə imkanları dayanır. Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır. Ölkənin investisiya cəlbediciliyi kifayət qədər yüksəkdir.

Bu qəbildən olan uğurlara gedən yol isə Prezident İlham Əliyevin imzaladığı Fərman və sərəncamlara uyğun olaraq həyata keçirilən iqtisadi məzmunlu islahatlardan keçir. Qabaqcıl dünya təcrübəsinin, müasir təsərrüfatçılıq metodlarının, yeni təşəbbüslərin tətbiqinə, liberal transformasiyalara uğurlu keçidin təmin olunmasına hesablanan kompleks islahatlar postneft dövründə milli iqtisadiyyatımızın inkişafı üçün münbit zəmin rolunda çıxış edərək onun qarşısında yeni perspektivlər açıb. Yeni nəsil iqtisadi islahatların əhatə dairəsinə bank-maliyyə sektorunun sağlamlaşdırılması, büdcəyə vergi daxilolmaları bazasının genişləndirilməsi, gömrük idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, bütün sahələrdə şəffaflığın təmin edilməsi kimi mühüm istiqamətlər daxildir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixində imzaladığı Fərmanla təsdiqlənən milli iqtisadiyyat perspektivi və onun 11 sektoru üzrə strateji yol xəritələri yaxın, orta və uzunmüddətli dövrlərdə ölkəmizin hərtərəfli inkişafına hesablanıb.



Yeni nəsil iqtisadi islahatlar çərçivəsində ölkədə qeyri-neft sektorunun üstün inkişafının təmin edilməsi hədəflənib. İxracın səmərəli təşviqi mexanizminin işə salınması, "Made in Azerbaijan" brendinin yaradılması və dünyada təbliğ edilməsi bu baxımdan xüsusi aktuallıq daşıyır. Yeni nəsil iqtisadi islahatlar çərçivəsində, həmçinin daxili istehsalın dəstəklənməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Aparılan islahatlar çərçivəsində dövlət həmçinin investisiyaların təşviqinin hüquqi bazasının möhkəmləndirilməsinə böyük siyasi iradə nümayiş etdirir. Prezident İlham Əliyevin imzaladığı müvafiq sənədlərə əsasən ölkə iqtisadiyyatına müxtəlif mənbələrdən investisiya qoyuluşu təşviq edilir və onların qorunmasına hüquqi təminatlar verilir. Respublikamızda sahibkarlıq mühitinin daha da optimallaşdırılmasına yönələn islahatların əhatə dairəsi də kifayət qədər genişdir.

### İdarəetmə islahatları yüksək vətəndaş məmnunluğunu təmin edir

Azərbaycanın yeni inkişaf mərhələsinə yüksəlməsi, müasir dövrün trendləri qarşıya, həmçinin idarəetmə strukturunun təkmilləşdirilməsi, kadr islahatları ilə bağlı ciddi tələblər qoyub. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra andiçmə mərasimində söylədiyi nitqində yeni islahatlar dalğasının anonsunu edib. İslahatların yeni mərhələsində institusional və kadr islahatları xüsusi olaraq diqqət mərkəzində saxlanılır. Bütövlükdə ölkəmizin hazırkı strateji mərhələdə hərtərəfli inkişafının təmin edilməsi müvafiq sahələrdə institusional islahatların sürətləndirilməsini və dövlət idarəetmə strukturunun təkmilləşdirilməsini zəruri edir. Hədəflərə çatılması böyük dərəcədə optimal idarəetmə mexanizminin qurulmasından, kadrların düzgün seçilib yerləşdirilməsindən asılıdır. Bu xüsusda fikirlərini nəzərə çatdıran dövlət başçımız vurğulayıb: "Yerli icra orqanlarında kadr dəyişikliyi aparılır və aparılacaq. Bu proses davam etdiriləcək. Bu, labüddür, çünki dayanıqlı inkişafı təmin etmək üçün həm struktur çevik olmalıdır və ağır olmamalıdır, eyni zamanda, kadrlar müasir çağırışlara cavab verməlidirlər. XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil. İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin".

Respublikamızda 2018-ci ildən sonra daha aktiv fazaya daxil olan institusional islahatlar idarəetmədə səmərəliliyi və çevikliyi artırmağa hesablanıb. Qeyd etmək yerinə düşər ki, 2019-cu ilin əvvəlindən Prezident İlham Əliyev tərəfindən struktur islahatları ilə bağlı mühüm qərarlar qəbul edilib. Ardıcıllıqla aparılan struktur islahatları dövlət idarəetməsini iqtisadi inkişafın yeni mərhələsinə uyğunlaşdırır. İnstitusional islahatlar, həmçinin idarəetmədə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə geniş meydan verilməsi, Elektron Hökumətin yaradılması müxtəlif dövlət xidmətlərinə əlçatanlığı artırıb, operativliyi və şəffaflığı təmin edib. Azərbaycanın yaratdığı "ASAN xidmət" şəbəkəsi, "DOST" mərkəzləri vətəndaşlara ictimai xidmətlər göstərilməsində bir inqilabdır. Bu şəbəkələr vasitəsilə insanlar eyni məkanda müxtəlif xidmətlərə asan və keyfiyyətli çıxış əldə edirlər. Artıq beynəlxalq səviyyədə də Azərbaycanın təcrübəsi diqqətlə öyrənilir. Qürurverici haldır ki, artıq ölkəmiz dünyada həm də intellektual brendi ilə tanınır.

Vətən müharibəsindən sonra respublikamızda idarəetmə çərçivələrinin yenilənməsi istiqamətində mühüm addımlar atılıb. Belə ki, Prezident İlham Əliyev 19 yanvar 2021-ci ildə "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" Fərman imzalayıb. Sənəddə də vurğulandığı kimi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinə Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri rəhbərlik edirlər. Xatırladaq ki, respublikamızda Prezidentin ilk xüsusi nümayəndəsi Vətən müharibəsində işğaldan azad edilən Şuşa rayonuna təyin edilib. Oxşar idarəçilik üsulu Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında da tətbiq edilib. Muxtar respublikaya rəhbərlik 2022-ci ilin sonlarından etibarən Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə həvalə olunub. Yeni idarəçilik üsulunun çevikliyin, şəffaflığın və bütün bunların nəticəsi olaraq vətəndaş məmnunluğunun təmin edilməsi baxımından böyük üstünlükləri var.

Bu məqamda vurğulamaq yerinə düşər ki, son illərdə Azərbaycanın həyata keçirdiyi struktur islahatları, ölkədə idarəetmə mexanizminin daha da təkmilləşdirilməsi beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. 2019-cu ilin iyun ayında Bakıda Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu keçirilib. Dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin iştirak etdiyi belə bir mötəbər forumun Bakıda keçirilməsi Azərbaycanın təcrübəsinin dünyada böyük maraqla izlənildiyini bir daha təsdiqləyir. Azərbaycanda dövlət xidmətlərinin çox təkmil və yüksək səviyyədə həyata keçirildiyi BMT-nin Bakıda baş tutan Dövlət Xidmətləri Forumunda da xüsusi vurğulanıb. Forum çərçivəsində ölkəmiz BMT-nin xüsusi mükafatına layiq görülüb. BMT Baş katibinin iqtisadi və sosial məsələlər üzrə müavini Liu Cenmin ölkəmizdə rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatını Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təqdim edib.

Ölkəmizdə yeni mərhələdə institusional islahatların davamı olaraq kadr siyasəti də keyfiyyətcə yeni mərhələyə qaldırılıb. Ölkə Prezidenti dövlət orqanlarında, icra strukturlarında islahatları dərinləşdirmək istəyir. Kadrlar da məhz qarşıya qoyulan tələblərə uyğun işləməlidirlər, islahatların dərinləşməsinə öz töhfələrini verməlidirlər.

Yeni Azərbaycan Pratiyasının seçki platformasında vurğulandığı kimi, qısa müddət ərzində çoxşaxəli institusional və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyini təmin etməklə, vətəndaş məmnunluğuna, milli həmrəyliyin gücləndirilməsinə, bütövlükdə Azərbaycan dövlətinin milli gücünün artmasına etibarlı zəmin yaradıb. Lakin həyat bir yerdə dayanmır. Buna görə də idarəetmədə çevikliyin və effektivliyin artırılması məqsədilə institusional və struktur islahatlarının gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

*Mübariz ABDULLAYEV*



# 6 milyon 422 minə yaxın seçici...

## MSK parlament seçkilərinə tam hazırdır

Məlum olduğu kimi, sentyabrın 1-də ölkəmizdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Seçkilərlə əlaqədar bülletenlərin dairə seçki komissiyalarına paylanılması avqustun 26-da başa çatdı. Mərkəzi Seçki Komissiyasından (MSK) bildirilib ki, seçki bülletenləri səsvermə gününə azı 3 gün qalmışadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına təhvil veriləcək.

MSK sədri Məzahir Pənahov növbədənkənar parlament seçkilərinə hazırlıq prosesi, deputatlığa namizədlərin və seçicilərin son sayı ilə bağlı Real TV-nin suallarını cavablandırıb. O, qeyd edib ki, MSK növbədənkənar parlament seçkilərinə tam hazırdır: "Fəaliyyətimiz şəffaf keçir, müxtəlif media qurumları da MSK-nın gördüyü işləri davamlı olaraq ictimaiyyətə çatdırır.

Azərbaycanda seçki komissiyaları fəaliyyət göstərmək üçün müvafiq binalarla təmin olunub. Bu baxımdan ölkəmizdə MSK da daxil olmaqla dairə seçki komissiyaları üçün nümunəvi binalar tikildi. Məsələn, 125 dairənin yarıdan çoxu, təxminən 70 faizininin binaları yeni tikilib. Bəziləri isə əvvəllər mövcud olan binalar idi. Bu il həmin binalar ölkə başçısının müvafiq tapşırğına əsasən yeniləndi. Bölgələrimizin əksəriyyətində 15 ildən çoxdur ki, ciddi işlər aparılır, kəndlərdə və qəsəbələrdə də seçki təyinatlı binalar tikilir".

M.Pənahov növbədənkənar parlament seçkilərində namizədlərin və seçicilərin sayını da açıqlayıb: "125 dairə üzrə 991 namizədin adı bülletenə daxil edilmişdi. Deputatlığa namizədlərdən biri 3 gün öncə bədbəxt hadisə nəticəsində dünyasını dəyişib. Ona görə də 990 namizəd var. 125 dairə üzrə siyahıya alınmış seçicilərimizin sayı isə 6 milyon 421 min 960 nəfərdir. Yəni, 6 milyon 422 minə yaxın seçici var. Bu seçicilər, ümumilikdə, 6478 məntəqədə səs verəcəklər. Onlardan 6343-ü daimi fəaliyyət göstərən məntəqədir, müvəqqəti məntəqələrimizin sayı isə 135-dir. Belə məntəqələr hərbi hissələr, sərhəd qoşunları və müvəqqəti təcridxanalarda olan seçicilərimizin səs verməsi üçündür. Müvəqqəti məntəqələrmizin də hər biri səsverməyə hazırdır".

**Azad edilmiş rayonlarda seçicilərin sayı...**

MSK sədri bildirib ki, azad edilmiş ərazilərimizdə 54 məntəqə fəaliyyət göstərəcək: "Həmin məntəqələrin sayı "Böyük Qayıdış" planına əsasən müəyyən edilib. Prosesi elə təşkil etmişik ki, azad edilən bölgələrimizə qayıdan seçicilərin hamısı rahat səs verə bilsinlər. 42 min 200-ə yaxın seçicinin səs vermə hüququ var. Məntəqələrdən 34-ü daimi, 20-i isə müvəqqəti fəaliyyət göstərir".

**1000 məntəqədə veb kamera quraşdırılıb**

M.Pənahov seçkilərdə şəffaflığın yüksək təmin edilməsindən də danışıb. O, qeyd edib ki, 1000 məntəqədə veb kameralar quraşdırılıb: "Veb kamerların quraşdırılması da artıq başa çatıb. Seçilən 1000 məntəqələrin hər birində Azərbaycan ərazisi tam əhatə olunub. Yeri gəlmişkən, bəzi seçicilərimizin şəxsiyyət vəsiqələrinin müddəti başa çatıb. Amma vətəndaşlar bundan narahat olmasınlar. Müddəti başa çatmış şəxsiyyət vəsiqələri ilə bağlı bütün məntəqələrə göstərişlər verilib ki, vətəndaşlar tam sərbəst səs verə bilsinlər".

*Yeganə BAYRAMOVA*

# "Yeni zəfərlərə imza atmaq əzmindəyik!"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 109 saylı Qazax seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səməd Seyidovun Qazax rayonu, Daş Salahlı, Hüseynbəyli və Canalı kəndlərində seçicilərlə görüşləri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev qeyd edib ki, Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər qüdrətli olmayıb: "Bütün uğur və qələbələrimiz Heydər Əliyev yolu ilə bağlıdır".

Deputatlığa namizəd Səməd Seyidov YAP-ın seçki platforması haqqında məlumat verib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmdə yüksək nüfuz qazandığını diqqətə çatdırıb. Deputatlığa namizəd 1 sentyabr - növbədənkənar parlament seçkilərinin ilk dəfə olaraq suveren Azərbaycanın bütün ərazilərində keçiriləcəyini xüsusi vurğulayıb: "Azərbaycan dünyaya qüdrətini nümayiş etdirib və bu gün yeni zəfərlərə imza atmaq əzmindədir. Xalqımız bu reallıqları görür və müsbət qiymətləndirir".

Təşviqat qrupunun üzvləri Məmməd Yusifov, Bəsti Ələkbərova, Cavanşir Rüstəmov, Müqabil Məmmədov, Fərhad Qocamanov və digərləri əldə olunan nailiyyətlərə diqqəti cəlb edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər öz növbəsində Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəklərini bildiriblər.



# "Xalqımız tərəqqiyə hədəflənmiş siyasətin nəticələrini yüksək qiymətləndirir"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məlahət İbrahimqızı YAP Nəsimi rayon təşkilatının qərargahında seçicilərlə görüş keçirib.



YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov qeyd edib ki, Yeni Azərbaycan Partiyası respublikanın ərazi bütövlüyünün və suverenliyinin bərpası, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən əzəmətli bərpa-quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurd yuvalarına "Böyük Qayıdışı", dünya birliyində güclü və nüfuzlu Azərbaycan reallıqları ilə seçicilərin qarşısına çıxıb.

Deputatlığa namizəd Məlahət İbrahimqızı Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında geniş məlumat verib. O bildirib ki, Azərbaycan vətəndaşları Heydər Əliyev siyasətini müdrikliklə həyata keçirən dövlət başçısı İlham Əliyevi özünün alternativsiz Lideri kimi görür: "Bu ilin fevral ayında ölkəmizdə keçirilən prezident seçkilərində biz bunun növbəti dəfə şahidi olduq. Qədirbilən xalqımız daim istər çağdaş dövlətimizin qurucusu olan Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı əvəzsiz xidmətlərini, istərsə də Müzəffər Ali Baş Komandanımızın ölkəmizə qazandırdığı möhtəşəm nailiyyətləri yüksək qiymətləndirir. Xalqımız çox gözəl bilir ki, onun işıqlı gələcəyi dünya erməniliyini və onu dəstəkləyən imperialist qüvvələrin məkrli niyyətlərini darmadağın edən, respublikamızın ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezidentimizin adı və liderliyi ilə bağlıdır. Bu mənada, dəyərli seçicilərimiz Zəfərə, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin bərpasına, Qarabağın əzəmətli quruculuğuna, "Böyük Qayıdışa" və xalqın rifahına səs verəcəklər".



Daha sonra tədbirdə çıxış edənlərdən Əsgər Əhməd və digərləri ölkəmizin inkişafında Yeni Azərbaycan Partiyasının rolundan bəhs ediblər.

Seçicilər Yeni Azərbaycan Partiyasına olan etimadlarını ifadə edərək partiyanın namizədinə səs verəcəklərini bildiriblər.

# Heydər Əliyev yolu müasir Azərbaycanı zirvələrə yüksəldib

**9 saylı Binəqədi ikinci seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamaləddin Qafarov yap.org.az saytına müsahibə verib.**



**- Kamaləddin müəllim, sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi Zəfərdən sonra ilk dəfə bütün ölkə ərazisində keçirilən parlament seçkilərinin önəmi barədə nə deyə bilərsiniz?**

- Bu gün hər birimiz sabitlik diyarı, təhlükəsiz ölkə və əməkdaşlıq məkanı kimi tanınan Azərbaycanın tarixi Zəfərindən, ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsindən qürurla bəhs edirik. Təbii ki, bütün bu nailiyyət və qələbələr asanlıqla əldə edilməyib.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illərində yaşadıqlarımız yaddaşlarda silinməz izlər buraxıb. Müstəqilliyini bərpa edən Azərbaycanda hakimiyyətsizliyin mövcudluğu böyük faciələrə yol açdı, respublikamız müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldı. Belə bir taleyüklü məqam və mərhələdə xalq ayağa qalxdı, öz sözünü dedi, iradəsini ortaya qoyaraq müdrik dövlət xadimi Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

İnkaredilməz reallıqdır ki, hər bir ölkənin həyatında, hər bir xalqın taleyində həlledici rola malik mühüm dönüş nöqtələri olur. Azərbaycan üçün dönüş nöqtələrindən biri 1992-ci ildə xalqın istəyi, zamanın, dövrün tələbi ilə Yeni Azərbaycan Partiyasının yaradılması oldu. Həmin dönəmin reallıqları xalqın böyük əksəriyyətinin istəyini özündə ehtiva edən 91 nəfər ziyalının Ümummilli Lider Heydər Əliyevə müraciətində öz əksini tapmışdı. Dahi şəxsiyyət bu müraciətə cavabında yaşanan problem və faciələrdən xilas yolunu göstərdi. Beləliklə, 21 noyabr 1992-ci ildə müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük missiya götürən Yeni Azərbaycan Partiyası yarandı.

Prezident İlham Əliyev YAP-ın tarixi Zəfərimizin reallıqları əsasında keçirilən VII qurultayında həmin dövrə diqqəti yönəldərək qeyd etmişdir: "Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başladı. Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox".

Cənab İlham Əliyevin bu fikirləri dünənimizin, bugünümüzün və gələcəyimizin aydın mənzərəsini təqdim edir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəmizin, Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələnin başlanğıcı oldu. Bütün bu reallıqlar 1 sentyabr - növbədənkənar parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyasının seçki platformasında da öz əksini tapıb. Platformada qeyd edildiyi kimi, 1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Müdrik dövlət xadiminin milli maraqlara, dövrün çağırışları və reallıqlarına uyğun siyasəti nəticəsində mərkəzdənqaçma meyillərinin - dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyi təmin olundu. Siyasi-hüquqi islahatların reallaşdırılması, müstəqillik dövründə ilk parlament seçkilərinin keçirilməsi və ilk Konstitusiyanın ümumxalq səsverməsi - referendum əsasında qəbul edilməsi, kütləvi informasiya vasitələri üzərində senzuranın aradan qaldırılması və digər addımlar plüralizmə əsaslanan siyasi sistemin bərqərar olmasına və Azərbaycanın demokratik inkişaf yolunda inamla irəliləməsinə təkan verdi.

Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxaran Ümummilli Lider 2003-cü ildə xalqa müraciət edərək "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə vurğuladı. Azərbaycan xalqı növbəti dəfə Ulu Öndərə sonsuz inam ifadə edərək onun layiqli davamçısı cənab İlham Əliyevə böyük etimad göstərdi.

Siyasi varisliyin təmin olunması Azərbaycanın son 20 ildən artıq dövrdə qazandığı uğurların, ən başlıcası isə, tarixi Zəfərimizin əsası oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yeni inkişaf strategiyası həyata keçirildi. Dövlətimizin başçısı bu illər ərzində bütün sahələrin müasir tələblərə uyğun inkişafını təmin etdi. Azərbaycanın iqtisadi müstəqilliyi gücləndikcə beynəlxalq siyasi mövqeyi də möhkəmləndi. Ordu quruculuğu sahəsində də mühüm addımlar atıldı və bu proses hazırda uğurla davam etdirilir. 44 günlük İkinci Qarabağ müharibəsində əldə olunan tarixi Zəfərimiz, 2023-cü ildə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası uğurların zirvəsini təşkil edir.

Xalqımız dövlət başçısının hər bir vədinin uğurla yerinə yetirilməsinin şahididir. Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində Azərbaycanın regionun lideri kimi dünyada qüdrətli və qalib dövlət kimi tanınması hər birimizi qürurlandırır, sabaha daha böyük inamla addımlamağa stimul verir.

Bütövlükdə, hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir. Bu gün qalib Azərbaycanın qarşısında daha böyük vəzifələr durur. Yeni hədəflərin uğurla reallaşdırılması növbəti qələbələri şərtləndirəcək.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında əksini tapan hədəflər qalib Azərbaycana nə vəd edir?**

- Azərbaycan hər bir hədəfə doğru inamla addımlayır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bütün işləri ardıcıllıqla edirik. Hədəflər düzgün müəyyənləşdirilir və uğurla reallaşdırılır. Bunun nəticəsidir ki, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişaf təmin edilib, beynəlxalq aləmdə Azərbaycan çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevrilib. Əsas hədəfimiz - ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası artıq reallığa çevrilib. Bu gün yeni dövrə qədəm qoyan yeni Azərbaycanın yeni hədəflərindən bəhs edirik.

Azərbaycanın hərtərəfli inkişafı üçün kompleks tədbirlərin görülməsi daim qarşıda dayanan vəzifələr sırasındadır. Yeni Azərbaycan Partiyasının seçki platformasında əksini tapan hədəflər Azərbaycanın davamlı inkişafına, xalqımızın rifahına xidmət edəcək. Qalib, bütövləşən Azərbaycan qarşıdakı illərdə daha möhtəşəm uğurlara imza atacaq. Güclü lider, düşünülmüş siyasət hər zaman ölkəmizin qarşısında geniş imkanlar açan uğurları şərtləndirir.

Azərbaycanın əsas hədəflərindən biri Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsidir. YAP-ın seçki platformasında qeyd edildiyi kimi, "Böyük Qayıdış", ilk növbədə, tarixi ədalətin bərpasının təzahürüdür. Yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyulması, onların ata-baba torpaqlarına qayıdışının təmin olunması böyük tarixi və mənəvi-siyasi əhəmiyyətə malik olmaqla ədalətin təntənəsidir. Bununla yanaşı, bu proses öz doğma yurdlarında yenidən məskunlaşan insanların "məcburi köçkün" sindromundan qurtulması, ata-baba torpaqlarında azad yaşayıb-yaratmaları, onların rifah və firavanlığının təmin olunması baxımından mühüm önəm daşıyır. "Böyük Qayıdış", həmçinin müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutan Azərbaycanın dünyada imicinin daha da möhkəmləndirilməsinə və geosiyasi statusunun yeni müstəviyə yüksəlməsinə xidmət edəcək. Qarabağ və Şərqi Zəngəzurun malik olduğu potensial imkanlardan gələcəkdə səmərəli istifadə edilməsi ölkəmizin dayanıqlı inkişafına mühüm töhfə olacaq.

Bütövlükdə, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir mərhələsinə uğurla yekun vuraraq yeni dövrə qədəm qoyub. Tarixi nailiyyətlərlə başlayan yeni dövr uğurla davam edir.

**- Kamaləddin müəllim, seçkilərə böyük qələbə əzmi ilə qatılan Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi kimi seçicilərlə görüşlər sizdə hansı təəssüratı yaradır?**

- Ölkəmiz demokratik dəyərlərə sözdə deyil, əməldə sadiqliyini nümayiş etdirir. İnsan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın və çoxpartiyalı sistemin inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi üçün mühüm addımların atılması da deyilənlərin təsdiqidir. Bu gün Azərbaycanın demokratiya təcrübəsi nümunədir.

Müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçiriləcək parlament seçkilərinin şahidi olacağıq. Bu, qürurverici hadisədir.

Seçkiqabağı təşviqat mərhələsi uğurla davam edir. Seçicilərlə görüşlər xoş təəssürat yaradır. Xalqımız yüksək seçki əhval-ruhiyyəsindədir. Yeni Azərbaycan Partiyası zəfərlər, qələbələr partiyası kimi böyük nüfuz qazanıb və daim ölkədə gedən bütün proseslərin mərkəzində dayanır. Seçicilərlə görüşlərdə dövlətimizin siyasətinə, Yeni Azərbaycan Partiyasına böyük inam və etimadın şahidiyik. Xalqımız zəfərlərimizlə qürur duyur və gələcəyə inamla baxır.

Hazırda qarşımızda dayanan başlıca məqsəd növbəti hədəflərimizin gerçəkləşdirilməsidir. Partiyamızın seçki platformasında qeyd edildiyi kimi, siyasi sabitliyin və milli birliyin qorunması, davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması, tarixi Zəfərimizin beynəlxalq müstəvidə tam və qəti şəkildə təsbit olunması, dövlətimizin hərbi qüdrətinin daha da artırılması, Böyük Qayıdış Proqramının ardıcıl olaraq və zamanında həyata keçirilməsi, regionda dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə, çoxşaxəli əməkdaşlığa nail olunması və digər hədəflər xüsusi əhəmiyyət kəsb edir.

Yeni hədəflərin uğurla reallaşdırılması üçün seçiciləri parlament seçkilərində fəal olmağa, Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıram.

# Yeni Azərbaycan Partiyası siyasi proseslərin flaqmanıdır



**44 saylı Sumqayıt üçüncü seçki dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Mehriban Vəliyeva yap.org.az saytına müsahibə verib.**

**- Mehriban xanım, ölkəmiz daha bir mühüm siyasi proses - növbədənkənar parlament seçkiləri ərəfəsindədir. Azərbaycan bu seçkilərə hansı reallıqlar fonunda gedir?**

- Dövlətçilik tarixinin ən güclü, qürurlu mərhələsini yaşayan Azərbaycan həm ölkə daxilində, həm də regionda yeni siyasi reallıqlar yaradıb. 44 günlük Vətən müharibəsi və ardınca bir günlük antiterror tədbirləri nəticəsində ərazi bütövlüyü və suverenliyini bərpa etməklə, Qarabağda separatizm yuvasını tam dağıtmaqla dünyaya öz gücünü göstərən ölkəmiz üçün yeni perspektivlər yaranıb.

Demokratik inkişaf yolunda irəliləyən Azərbaycanda ilk dəfə olaraq cari ilin fevral ayında ölkənin bütün ərazisini əhatə edən prezident seçkiləri keçirildi. Otuz il davam edən erməni işğalından sonra azad olunmuş ərazilərdə seçicilərin səsvermə hüquqları bərpa edildi. Hazırda ölkəmiz növbəti mühüm siyasi prosesə - növbədənkənar parlament seçkilərinə hazırlaşır. Bu, müstəqil Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, işğaldan azad olunmuş torpaqlarda keçiriləcək ilk parlament seçkisi kimi tarixə düşəcək. Bu, suverenliyimizin qanunvericilik müstəvisində də təsdiqinin daha bir təzahürüdür.

Azərbaycanın tarixi qələbələrinin əsasında Heydər Əliyev ideyaları durur. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik təcrübəsi, düşünülmüş və gələcəyə hesablanmış inkişaf strategiyası nəticəsində ölkəmiz təlatümlər burulğanından xilas oldu, müstəqilliyimiz qorunub saxlandı, vətəndaş müharibəsinin qarşısı alındı, möhkəm ictimai-siyasi sabitlik təmin olundu. Heydər Əliyev irsini müasir dövrün çağırışlarına uyğun davam etdirən və zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Azərbaycan tarixinin şanlı səhifəsini - Zəfər tarixini yazdı. Beləliklə, Azərbaycan müstəqil dövlətçilik tarixinin şərəfli bir dönəmini uğurla başa vuraraq yeni bir dövrə qədəm qoydu.

Bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi mühüm rola malikdir. Parlamentdə ən çox millət vəkili ilə təmsil olunan hakim partiya hər zaman siyasi proseslərin flaqmanı olub və bu gün cəmiyyətdə partiyamıza olan münasibət yüksək səviyyədədir. Heç şübhəsiz, vətəndaşların etimadı və güclü dəstəyi qarşıdan gələn parlament seçkilərində də möhtəşəm qələbəni şərtləndirəcəkdir.

Ölkəmizin siyasi sistemində lider mövqeyə malik Yeni Azərbaycan Partiyası Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərə Prezident İlham Əliyevin sədrliyi ilə əldə etdiyimiz ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə və qələbə əzmi ilə qatılır.

**- Yeni Azərbaycan Partiyasının seçki platformasında son 30 ildə əldə edilən uğurlarla yanaşı, qarşıda duran əsas hədəflər də öz əksini tapıb. Müasir çağırışlara cavab verən çoxşaxəli islahatların dərinləşdirilməsi bu kontekstdə başlıca vəzifələrdən biridir. Bununla bağlı nə deyə bilərsiniz?**

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sistemli və davamlı siyasi, hüquqi, sosial-iqtisadi, çoxşaxəli institusional və struktur islahatları idarəetmənin səmərəliliyi və çevikliyini təmin etməklə yanaşı, vətəndaş məmnunluğuna, milli həmrəyliyin güclənməsinə, bütövlükdə Azərbaycan dövlətinin gücünün artmasına etibarlı zəmin yaradıb, ölkəmizin tərəqqisini və qarşıda duran bir çox milli hədəflərin reallaşmasını mümkün edib.

Azərbaycanda hər bir sahədə olduğu kimi, təhsil sektorunda da islahatlar davam etməkdədir. Bu islahatların əsasında isə, şübhəsiz, Ulu Öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən strateji kurs dayanır. Prezident İlham Əliyevin yüksək diqqəti və müvafiq göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da, təbii ki, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından təkmilləşdirilməsi işinə ciddi töhfələr verir.

Uzun müddət təhsil sektorunda çalışan bir şəxs kimi deyə bilərəm ki, təhsilin inkişafı hər zaman dövlət siyasətinin əsas prioritetlərindən biri olub və bu sahəyə ölkə rəhbərliyi tərəfindən ən yüksək səviyyədə diqqət göstərilib. 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Azərbaycan müəllimlərinin XVI qurultayı keçirildi. 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda yer almış beş prioritet inkişaf istiqaməti üzrə hesabatlar təqdim olundu, növbəti mərhələ üçün hədəflər müəyyənləşdirildi. Bu qurultay təhsil sahəsində ciddi bir hadisə idi. Azərbaycan təhsili keçdiyi böyük tarixi yolun hesabatını verirdi. Bu yolda əldə etdiyimiz ciddi uğurlar da var, həlli vacib məsələlər də. Ən böyük uğur isə gənc nəslin tərbiyəsindəki vətənpərvərlik ruhunun Zəfər tariximizdəki roludur.

Təhsilə və müəllimlərə göstərilən dövlət qayğısı, ölkəmizdə müəllim nüfuzunun, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar, müəllimlərin sertifikatlaşdırılması və diferensial əməkhaqqı sisteminin tətbiqi sağlam rəqabəti və motivasiyanı gücləndirir. Dünyada gedən sürətli rəqəmsallaşma təhsildə də transformasiyaları labüd edir. Müasir dövrün tələblərinə cavab verən insan kapitalının formalaşması zərurəti təhsil pillələrində varislik prinsipinə uyğun yeni məzmun və yeni yanaşmalar tələb edir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən təsdiqlənən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" hər il 400 nəfər olmaqla ixtisas istiqamətində ehtiyaclara uyğun gənclərimizin xaricdə bakalavr və magistratura təhsili almaq imkanlarını ödəməklə yanaşı, gələcək kadr potensialının formalaşması istiqamətində də həyata keçirilən uğurlu proqramdır. Dövlət Proqramına dəyişiklik edilməsinə dair Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2024-cü il tarixli Sərəncamına əsasən Dövlət Proqramının 2028-ci ilə qədər uzadılması, doktorantura təhsili almaq imkanlarının əlavə edilməsi, tələbələrin sayının 400 nəfərdən 500 nəfərə qədər artırılması dövlət başçısının bu sahəyə diqqət və qayğısının bariz ifadəsidir. Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsilalma imkanları sosial baxımdan həssas əhalinin təhsilə əlçatanlığının təmin olunması deməkdir. Müasir dövrün tələblərinə uyğun peşə təhsili istiqamətində aparılan islahatlar, yeni ixtisasların açılması da insan kapitalının formalaşmasına xidmət edir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Qarabağda, Şərqi Zəngəzurda təhsil sahəsində aparılan işlər yeni nəslin uğurlu gələcəyi üçün yaradılan imkanlardır. Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universiteti qürur mənbəyimizdir. Həmin ərazilərdə türk dövlətləri ilə əməkdaşlıq və dostluq çərçivəsində tikilən təhsil müəssisələri dövlətimizin Türk dünyasında ikitərəfli və çoxşaxəli əlaqələri inkişaf etdirərək işbirliyini dərinləşdirmək siyasətinin gözəl nümunəsidir. Bu istiqamətdə aparılan islahatların daha da genişlənəcəyinə əminik.

**- Mehriban xanım, qeyd etdiniz ki, ən mühüm məqamlardan biri gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinin Zəfər tariximizdəki roludur. Ümumiyyətlə, dövlət gənclər siyasətinin nəticələri və bu istiqamətdə qarşıda duran hədəflər barədə nə deyə bilərsiniz?**

- Azərbaycan dövlətinin güclənməsində, ərazi bütövlüyü və suverenliyinin təmin olunmasında gənclərimizin rolu danılmazdır. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən gənc nəslin vətənpərvər, sağlam, savadlı olması üçün əlindən gələni əsirgəməyib. "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına, yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır", - deyən Ulu Öndər yeni nəslin nümayəndələrinin potensialını yüksək qiymətləndirib. Gənclər və İdman Nazirliyinin yaradılması, Gənclər Gününün təsis edilməsi, minlərlə Azərbaycan gəncinin xarici ölkələrdə təhsil almasına şərait yaradan təkmil konsepsiyanın hazırlanması, istedadlı gənclərin təhsilə marağını artırmaq üçün Prezident təqaüdünün təsis edilməsi gənclərə göstərilən dövlət qayğısının bariz nümunəsidir. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu ilə gənclərin qarşısında aydın, dəqiq məqsəd və vəzifələr qoyuldu. Vətənpərvərlik, milli təfəkkürə əsaslanan azərbaycançılığa sadiqlik, ölkəmizin qüdrətlənməsi naminə fəallıq əsas məqsədlərdən idi.

Prezident İlham Əliyev gənclər siyasətinin daha da inkişafı üçün yeni imkanlar yaratdı. "İndiki gənclər üçün imkanlar, təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda, dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar", - deyən Prezident İlham Əliyev gənclərin yeni texnologiyaların imkanlarından səmərəli istifadə etmələri, savadlı kadrlar kimi hazırlanmaları, ölkənin aparıcı qüvvəsinə çevrilmələri, bütövlükdə kreativ gənclik kimi formalaşması üçün yeni imkanlar yaratdı. Prezident İlham Əliyevin Sərəncamı ilə 2007-ci il ölkəmizdə "Gənclər ili" elan olundu. Hər bir rayon və qəsəbədə "Gənclər evi" yaradıldı. "Qara qızılın insan kapitalına çevrilməsi" prinsipinə uyğun olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə Gənclər Fondu yaradıldı. Gənclərin fiziki tərbiyəsinin yüksəldilməsi, idmana cəlb olunmaları üçün ölçüyəgəlməz tədbirlər həyata keçirildi. Bölgələrdə Olimpiya İdman Kompleksləri inşa edildi. Gənc kadrların irəli çəkilməsi siyasətinin təcəssümü olan "Yüksəliş" müsabiqəsi gənclərin intellektual səviyyələrinin artırılmasına, idarəçilik məharətlərinin təkmilləşməsinə dəstək oldu. Gənclər Fondu nəzdində respublikamızın şəhər və rayonlarında Gənclərin İnkişaf və Karyera Mərkəzləri fəaliyyətə başladı. 2020-ci il "Könüllülər ili" elan olundu.

"Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Hərbi əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyatlar nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik", - deyən cənab Prezident vətənpərvərlik ruhunda tərbiyə alan gənclərimiz haqda daim yüksək fikirdə olub: "Heç kim onlara, necə deyərlər, nə göstəriş verməmişdi, nə təlimat verməmişdi, onlar özləri bu informasiya meydançasında bir əsgərə çevrildilər və Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar".

Dövlət başçısı gənc nəslin tərbiyəsində ailənin və məktəbin rolunu xüsusi qeyd edərək onların milli dəyərlər üzərində, vətənpərvərlik ruhunda tərbiyə məsələsini xüsusi olaraq vurğulamış, növbəti dövr üçün də əsas hədəf kimi təqdim etmişdir.

Gənclər siyasətinin uğurla aparılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu danılmazdır. Yalnız gənclərin deyil, müxtəlif çoxşaxəli layihə və proqramlarla bütün təbəqələri və əsasən həssas qrupları əhatə edən fəaliyyəti ilə Mehriban xanım Əliyeva saysız insanın dostuna çevrilmişdir. Mehriban Əliyevanın təhsil, mədəniyyət, səhiyyə, idman, sosial sahələri əhatə edən, humanist prinsiplərə əsaslanan, dövlət maraqlarına, milli-mənəvi dəyərlərin, Azərbaycanın imicinin dünyaya təqdim edilməsinə xidmət edən çoxşaxəli fəaliyyəti gənc nəslə hər zaman nümunədir.

Partiyamızın seçki platformasında qeyd edildiyi kimi, Prezident İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət göstərməklə Azərbaycanın gələcəyini inşa edir. Bu siyasət mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşması və inkişafına hədəflənmişdir.

- Mehriban xanım, seçkiqabağı təşviqat mərhələsi çərçivəsində seçicilərlə görüşləriniz hansı təəssürat və qənaətləri ifadə etməyə əsas verir?

- 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Zəfər qarşımıza yeni missiya və öhdəliklər qoyur. İşğaldan azad olunmuş ərazilərimizin bərpası milli prioritetə çevrilib. Paralel olaraq respublikamızın digər regionlarının sosial-iqtisadi inkişafı da diqqət mərkəzindədir.

Seçkiqabağı təşviqat mərhələsi çərçivəsində keçirdiyimiz görüşlər zamanı seçicilər də bu məqamları vurğulayaraq görülən işləri yüksək qiymətləndirir, daha qüdrətli Azərbaycan naminə qarşıda duran hədəflərin - milli məqsədlərin reallaşdırılacağına birmənalı inam ifadə edirlər. Bu fakt ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir.

İnanırıq ki, sentyabrın 1-də keçiriləcək seçkilər xalqın Yeni Azərbaycan Partiyasına güvəninin növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Prezident İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaq. Heç şübhəsiz, sumqayıtlı seçicilər də seçki məntəqələrinə gələrək Yeni Azərbaycan Partiyasına növbəti dəfə etimad göstərəcək, "Yeni dövrə Yeni Azərbaycanla!" qədəm qoyacaqlar.

# "Görülən işlər Azərbaycanın bu günü və gələcəyi üçündür"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 76 saylı Lənkəran-Masallı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Cavanşir Paşazadə YAP Lənkəran rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək seçicilərlə görüş keçirib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatıldığını diqqətə çatdırıb. O, gənc seçiciləri seçki prosesində fəal iştirak etməyə çağırıb.



Deputatlığa namizəd Cavanşir Paşazadə YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası bugünədək əldə etdiyi uğurlara və yeni hədəflərə söykənərək 1 sentyabr - növbədənkənar parlament seçkilərinə böyük qələbə əzmi ilə qatılıb. "Partiyanın 32 ilə yaxın keçdiyi şərəfli yol cəmiyyətdə tutduğu mövqeyə işıq salır. Ümumxalq partiyasına çevrilən YAP sıralarında bütün kateqoriyadan olan insanları birləşdirib, öz monolitliyini qoruyur, hədəflərə çatmaq üçün bütün qüvvə və bacarığını səfərbər edir", - deyən C.Paşazadə əlavə edib ki, görülən işlər Azərbaycanın bu günü və gələcəyi üçündür.

Çıxış edən gənc seçicilər seçkilərdə fəal iştirak edəcəklərini və Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

# "Yeni Azərbaycan reallığı qürur və güvən mənbəyimizdir!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 104 saylı Gədəbəy seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Sevinc Hüseynovanın seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyev müstəqil Azərbaycanın Pre-



zident İlham Əliyevin rəhbərliyi ilə davamlı nailiyyətlər və möhtəşəm qələbələr qazandığını bildirib. O, bütün seçkilərdə xalqın dəstəyi ilə qalib gələn Yeni Azərbaycan Partiyasının zəngin və şərəfli inkişaf yolundan bəhs edib, qarşıda duran hədəfləri diqqətə çatdırıb.

Deputatlığa namizəd Sevinc Hüseynova əvvəlcə YAP-ın seçki platforması haqqında məlumat verib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir Azərbaycan dövləti tarix yazır: "Əldə olunan böyük qələbələrin nəticəsidir ki, budəfəki parlament seçkiləri ilk dəfə olaraq ölkəmizin bütün ərazisində keçiriləcək".

Deputatlığa namizəd seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Tədbir iştirakçılarından Kərəm Məmmədov, İmamverdi Mustafayev və digərləri çıxış edərək vurğulayıblar ki, yeni dövrə Yeni Azərbaycanla birgə addımlamaq üçün seçkilərdə fəal iştirak edərək YAP-ın namizədinə səs verəcəklər. "Yeni Azərbaycan reallığı qürur və güvən mənbəyimizdir!", - deyə vurğulanıb.

# "Azərbaycan sabitlik adası kimi inkişaf yolunda inamla irəliləyir"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 61 saylı Qusar seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Azər Badamovun seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov bildirib ki, Azərbaycan uğurla inkişaf edərək mühüm nailiyyətlərə imza atır: "Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyi dayanır. İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şərait yaradılıb və sosial ədalət prinsipi daim qorunur. Görülən işlər vətəndaşların layiqli həyat şəraitinin təmin olunması və sosial rifahının yaxşılaşmasında öz əksini tapıb".



Deputatlığa namizəd Azər Badamov YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, bu gün Azərbaycan dünyada sabitlik və təhlükəsizlik adası kimi tanınır: "Ölkədə mövcud olan həmrəylik, xalq-iqtidar birliyi milli təhlükəsizliyin əsaslarını daha da möhkəmləndirir. Bu gün ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində və tolerant mühitdə yaşayırlar. Respublikamızda multikulturalizmin həm dövlət siyasəti olaraq müəyyənləşdirilməsi, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik adası kimi inkişaf yolunda inamlı irəliləyişini təmin edir".

Təşviqat qrupunun üzvləri Neva Abdurahmanova, Aytən Səlimova, Rüfanə Balahmədova və digərləri yeni mərhələdə davamlı uğurlara nail olmaq üçün seçiciləri Yeni Azərbaycan Partiyasını dəstəkləməyə çağırıblar.

# "Günümüzün çağırışları "Yeni dövrə Yeni Azərbaycanla!" şüarında öz ifadəsini tapıb"



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 79 saylı Astara seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rəşad Mahmudovun YAP Astara rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov bildirib ki, Yeni Azərbaycan Partiyası siyasi sistemin aparıcı qüvvəsidir: "Partiyamız hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşır. YAP-ın parlament seçkilərində möhtəşəm qələbə qazanacağı heç kimdə şübhə doğurmur".

Deputatlığa namizəd Rəşad Mahmudov YAP-ın seçki platforması haqqında geniş məlumat verib. O bildirib ki, bugünkü reallıqlar Ulu Öndər Heydər Əliyevin zəngin idarəçilik təcrübəsinə, liderlik keyfiyyətlərinə, öz dövlətinə, xalqına bağlılığına, Azərbaycanı daim zirvələrdə görmək istəyinə əsaslanan uğurlu siyasəti sayəsində mümkün olub: "Azərbaycan hər dövrün çağırışlarından irəli gələn vəzifələri yüksək səviyyədə yerinə yetirərək növbəti hədəfləri müəyyənləşdirir. Günümüzün çağırışları Yeni Azərbaycan Partiyasının "Yeni dövrə Yeni Azərbaycanla!" şüarında özünün aydın ifadəsini tapıb".

R.Mahmudov qeyd edib ki, atılan addımlar xalq-iqtidar birliyini daha da möhkəmləndirir, Yeni Azərbaycan Partiyasına inam və etimadı artırır.

Tədbir iştirakçılarından Elnur Rüstəmov, Rasim Qurbanov, Fəxrəddin Məmmədov və İstək Muradova çıxış edərək YAP-ın xalqın etimadını doğrultduğunu və ölkəmizin inkişafına layiqli töhfələr verdiyini bildiriblər.

Seçicilər isə YAP-ın namizədinə səs verəcəklərini ifadə ediblər.

Qeyd edək ki, deputatlığa namizəd Rəşad Mahmudov rayonun Alaşa, Şiyəkəran kəndləri və Ərçivan qəsəbəsində də seçicilərlə görüşlər keçirib.



# "Seçkilər YAP-a inam və etimadın daha bir təsdiqi olacaq"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 78 saylı Lənkəran kənd seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Anar İsgəndərovun Gərmətük qəsəbə, Velədi, Viyən, Şiləvar və Digah kəndlərindən olan seçicilərlə görüşü keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev qeyd edib ki, hər günü müstəqillik tarixinə uğur səhifəsi kimi yazan Azərbaycan, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur mənbəyidir: "Xalqımız Azərbaycanı qalibiyyətə qovuşduran Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək yeni hədəflərə doğru inamla addımlayır".

Deputatlığa namizəd Anar İsgəndərov YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının hədəfləri ölkənin milli məqsədlərini əks etdirir: "Partiyamız bu zamana qədər Azərbaycanın yüksəlişində müstəsna rol oynamış, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa töhfələrini verəcəkdir".



"Xalqımız Heydər Əliyev yoluna sadiqdir, ölkəmizin parlaq gələcəyinə inanır və bunu seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstəyi ilə ifadə edir. Heç şübhəsiz, 1 sentyabr - növbədənkənar parlament seçkiləri də bu inam və etimadın, birlik və həmrəyliyin daha bir ifadəsi olacaqdır", - deyə deputatlığa namizəd əlavə edib. O, seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Təşviqat qrupunun üzvləri Asif İmanlı, Mais Cəfərov, Cəmil Quliyev və digərləri seçiciləri Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə, birlikdə növbəti zəfərlərə doğru inamla addımlamağa çağırıblar.

# Doğru seçim...



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 27 saylı Sabunçu ikinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Səbinə Qasımovanın seçicilərlə görüşü keçirilib.

YAP Sabunçu rayon təşkilatının sədri Araz Xudadanov Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında məlumat verib. Bildirib ki, YAP-ın məqsədyönlü fəaliyyəti xalq tərəfindən həmişə dəstəklənib. Vurğulanıb ki, ölkəmizin uğurlu inkişafı aparılan məqsədyönlü siyasətin alternativinin olmadığını təsdiqləyir.



Deputatlığa namizəd Səbinə Qasımova Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlərdən bəhs edib. Bildirib ki, YAP şərəfli inkişaf yolu keçərək böyük müvəffəqiyyətlər qazanıb. Qeyd edib ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə layiqli töhfələr verəcəkdir.

S.Qasımova seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Seçicilər isə xalqın partiyası olan YAP-ın namizədinə səs verəcəklərini vurğulayıblar. "Yeni Azərbaycan Partiyasına etimad göstərmək ən doğru seçimdir", - deyə vurğulanıb.

# Qalib Azərbaycan yeni reallıqlarla dünyanın diqqətindədir



2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 32 saylı Suraxanı üçüncü seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Afət Həsənovanın YAP Suraxanı rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Suraxan rayon təşkilatının sədri Vüqar Seyidov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə getməsi qürurverici olmaqla tarixi qələbələrdən qaynaqlanır: "Yeni Azərbaycan Partiyası xalqın etimadını qazanan və doğruldan aparıcı partiyadır".

Deputatlığa namizəd Afət Həsənova YAP-ın seçki platforması barədə məlumat verib. O qeyd edib ki, partiyanın seçki platformasında uğurlar və onların əsasında müəyyənləşdirilən hədəflər öz əksini tapıb: "Bu hədəflər ictimai-siyasi sabitliyin və milli təhlükəsizliyin təmin olunmasını, xalqımızın mədəni irsinin və milli-mənəvi dəyərlərinin qorunmasını, milli maraqlara əsaslanan xarici siyasəti və Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmləndirilməsini, demokratik inkişafı, müasir çağırışlara cavab verən çoxşaxəli islahatları, davamlı və dayanıqlı iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsini, müasir ordu quruculuğunu, gənclər siyasətini, ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın təmin olunmasını, işğaldan azad edilmiş ərazilərə tarixi qayıdışı və böyük quruculuq prosesini əhatə edir".

Deputatlığa namizəd vurğulayıb ki, Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir və yüksək siyasi nüfuzu ilə fərqlənir: "Əlbəttə, biz yeni dövrə Yeni Azərbaycanla gedirik. Əvvəlki parlament seçkilərindən fərqli olaraq bu dəfə seçkilər suveren respublikamızın bütün ərazilərində keçiriləcək. Şübhə yoxdur ki, yeni dönəmdə Azərbaycan yeni zirvələr fəth edəcək".

Tədbir iştirakçılarından Arzu Hacızadə və Nuriyyə Dəmirova çıxış edərək seçiciləri parlament seçkilərində fəal iştirak etməyə və YAP-ın namizədinə səs verməyə çağırıblar.

Qeyd edək ki, həmin gün Afət Həsənova Əmircan qəsəbəsi, İlham Şükürov küçəsində də bir qrup seçici ilə görüşüb.



# "Qətiyyətli lideri olan xalq yenilməzdir!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 88 saylı Şamaxı seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Rəfail Tağızadənin YAP Şamaxı rayon təşkilatının qərargahında seçicilərlə görüşü keçirilib.




YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı Azərbaycanın güclü iqtisadiyyata, dinamik inkişafa və dünya dövlətləri sırasında böyük nüfuza malik olduğunu bildirərək bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə xalq-iqtidar birliyinin dayandığını bildirib. "Qətiyyətli lideri olan xalq xoşbəxt və yenilməz - məğlubedilməzdir!", - deyə vurğulanıb.



Deputatlığa namizəd Rəfail Tağızadə qeyd edib ki, bu gün xalqımız tarixi Zəfərin reallıqlarını yaşayır: "Yeni dövr yeni hədəflərlə zəngindir. Ölkəmizi yeni dövrdə möhtəşəm uğurlar gözləyir. Xalqımız Prezident İlham Əliyevin siyasətini dəstəkləyir, dövlət başçısının ölkəmizə qazandırdığı nailiyyətləri olduqca yüksək dəyərləndirir".

O vurğulayıb ki, Yeni Azərbaycan Partiyasına xalqın inamı sonsuzdur: "Partiya bu inamı, etimadı qorumaq və daha da artırmaq üçün daim səylər göstərir. YAP-ın hər bir seçkiyə qələbə əzmi ilə qatılmasını şərtləndirən əsas amil də məhz xalqın partiyası olmasıdır".

Yerli seçki qərargahının üzvləri Ağarza Bayramov, Tünzalə Yusifova, Mayıl Alıcanov, həmçinin görüş iştirakçısı Namiq Kamal və digərləri çıxış edərək seçiciləri YAP-ın namizədini dəstəkləməyə çağırıblar.

# "Seçimimiz qalib dövlətin lider partiyasıdır!"

2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək növbədənkənar seçkilərin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 15 saylı Yasamal birinci seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əli Quliyevin YAP Yasamal rayon təşkilatının seçki qərargahında seçicilərlə görüşü keçirilib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev qeyd edib ki, Yeni Azərbaycan Partiyası ölkənin siyasi həyatının ən fəal və təşəbbüskar qüvvəsidir. Bildirilib ki, cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfəsini verib və bu siyasət bu gün də uğurla davam etdirilir. O, seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.



Deputatlığa namizəd Əli Quliyev Yeni Azərbaycan Partiyasının seçki platforması haqqında məlumat verib. Bildirib ki, Azərbaycan bu seçkilərə dayanıqlı və davamlı ictimai-siyasi sabitliyin fonunda gedir: "Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası cəmiyyətin bütün təbəqələrindən olan insanları öz ətrafında birləşdirib. Bu gün YAP Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə aparıcı rolunu daha da möhkəmləndirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni uğurlara imza atır".



Təşviqat qrupunun üzvləri Sahib Hüseynov, Şölət Zeynalov və Qiyas Hüseynov çıxış edərək seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Seçicilər 1 sentyabr - növbədənkənar parlament seçkilərində YAP-ın namizədini dəstəkləyəcəklərini vurğulayıblar. "Seçimimiz qalib dövlətin lider partiyasıdır!", - deyə vurğulanıb.

# Avropa miqrant axınının qarşısını necə alacaq?

**Bu gün Avropanın çoxsaylı problemləri sırasında miqrant böhranı xüsusi yer tutur. Bir vaxtlar ayrı-ayrı Qərb dövlətləri əmək ehtiyatlarına yaranan tələbatı qarşılamağın asan yolunu qapılarını taybatay miqrantların üzünə açmaqda görürdülər. Miqrantlardan əsasən ucuz işçi qüvvəsi kimi istifadə olunurdu. Hazırda isə vəziyyət əks istiqamətdə dəyişib. İndi çoxmilyonlu miqrantlar ordusu Avropa üçün ağır yükə çevrilib və "qoca qitə" bu yükü çiyinlərindən atmaq üçün yollar axtarır. Avropa miqrant axınının qarşısını ala biləcəkmi? Açığı, bunun mümkün olacağını söyləmək çətindir.**

## Məkrli siyasətin kədərli nəticələri

Əslində, bu gün yaşanan miqrant böhranı bütövlükdə, Qərbin apardığı məkrli siyasətin kədərli nəticələridir. Ayrı-ayrı Avropa dövlətləri yüz illiklər boyunca Afrikada, dənizaşırı ərazilərdə ağır müstəmləkəçilk siyasəti apararaq, talançılıq ediblər. Bunun əvəzində isə həmin ərazilərin inkişafına hansısa bir qayğı, diqqət göstərilməyib. Zəngin yeraltı və yerüstü sərvətləri olan ölkələrdə insanlar aclıqdan, səfalətdən əziyyət çəkirlər və həyatlarını təmin etmək üçün Avropa məkanına üz tuturlar. Bu, onların yeganə nicat, xilas yoludur.

Avropada yaşanan miqrant böhranının digər bir səbəbi Yaxın Şərqdə və digər regionlarda alovlanan müharibələr və rəngli inqilablar dalğasıdır. Həmin müharibələrin, milli hakimiyyətlərin devrilməsi ssenariləri də Qərb dairələrində yazılıb. Son illərdə ən çox miqrant axını Liviyadan, İraqdan, Suriyadan, Yəməndən, Əfqanıstandan və bir sıra digər ölkələrdən müşahidə olunur. Qərb dairələri məhz həmin ölkələrə rəngli inqilablar ixrac etməkdən ötrü dəridən-qabıqdan çıxırdılar. Bəli, bir sıra hallarda məkrli ssenarilər baş tutdu - milli dövlətlər idarə olunan xaos girdabına düşdülər. Ancaq dəyənəyin bir ucu da Qərbin özünə dəydi, ac-yalavac insanlar kütləvi şəkildə Avropaya üz tutdular.

Qeyri-leqal miqrant axınının kəskin artdığı Avropada hazırda yaranmış vəziyyət BMT tərəfindən "İkinci Dünya müharibəsindən bəri dünyada ən böyük qaçqın böhranı" hesab olunur. Qitəyə üz tutanların əksəriyyəti hazırda münaqişələrin, daxili müharibələrin, terrorizmin, xaosun hökm sürdüyü ölkələrdə yaşayış şəraitinin, humanitar vəziyyətin kəskin pisləşməsi ilə əlaqədar evlərini tərk etmək məcburiyyətində qalanlardır. Təqdim olunan statistika son dərəcə kədərli mənzərəni əks etdirir. 2023-cü ilin sonlarına olan məlumata əsasən, Avropa İttifaqı məkanında, o cümlədən Norveç və İsveçrədə 800 mindən çox sığınacaq ərizəsi təqdim edilib. Bu, 2016-cı ildən bəri ən yüksək göstəricidir. Sığınacaq üçün müraciətlər ünvanlayan ölkələrin sayı isə 30-a çatıb.

Avropaya miqrant axınında artım dinamikası cari ildə də kifayət qədər yüksəkdir.2024-cü ilin yanvar-iyul aylarında İspaniyaya 29 mindən çox qeyri-qanuni miqrant gəlib. Bu rəqəmi Krallığın Daxili İşlər Nazirliyi açıqlayıb. Məlumata görə, altı ayda ölkəyə gələn miqrantların sayı 2023-cü ilin analoji dövrü ilə müqayisədə 79,5 faiz artıb. Eyni zamanda, ən çox miqrant Kanar adalarına gəlib - təxminən, 21,5 min nəfər. Bu, ötən ilin yanvar-iyul aylarında qeydə alınan göstəricidən 152,4 faiz çoxdur. 2023-cü ildə Kanar adalarında qeyri-qanuni mühacirlərlə bağlı vəziyyət kəskinləşib. Belə ki, arxipelaqa 39,9 min miqrant gəlib və onların sayı 2022-ci illə müqayisədə 154,5 faiz artıb.

Oxşar vəziyyət Böyük Britaniyada da müşahidə edilir. Təkcə avqustun 17-də 500-ə yaxın miqrant 9 qayıqla La-Manş boğazını keçərək Böyük Britaniyaya gəlib. Bu barədə Britaniya Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumatda deyilir ki, avqustun 11-də 703, 12-də 125, 14-də isə 107 miqrant qayıqlarla Britaniyaya keçməyə nail olub. Bununla da, 2024-cü ildə kiçik qayıqlarla Böyük Britaniyaya keçən qanunsuz miqrantların ümumi sayı 19 min nəfəri ötüb. "İpsos" şirkətinin açıqladığı yeni anket-sorğunun nəticələrinə əsasən immiqrasiya indi britaniyalıların ən vacib hesab etdiyi məsələlər siyahısında birinci yerdədir.



## Avropanın qəddar üzü

Dağılmış, viran qalmış ölkələrindən baş götürüb Avropaya üz tutan miqrantlar burada Qərbin qəddar üzü ilə qarşılaşırlar. Miqrantların sayının artması fonunda Avropa ölkələrində ifrat sağçı təmayüllərin mövqeləri güclənib. Onlar miqrantlara qarşı sərt çağırışlar etməklə cəmiyyətlərin rəğbətini qazanırlar. Bunu bir qədər bundan əvvəl Avropa Parlamentinə keçirilən seçkilərin nəticələri də təsdiqlədi.

Məhz cəmiyyətlərin təzyiqləri, artan irqçilk çağırışları fonunda cari ilin birinci yarısında Avropa İttifaqı Şurası Aİ-nin miqrasiya standartlarının sərtləşdirilməsini özündə ehtiva edən Miqrasiya və Sığınacaq üzrə Paktı təsdiqləyib. "Aİ Şurası Avropanın miqrasiya siyasətinin köklü islahatını təsdiqləyib. Buraya qaçqınların nizamlı şəkildə gəlişini tənzimləməyə, səmərəli və vahid prosedur yaratmağa və yükün ədalətli bölüşdürülməsinə kömək edəcək bir sıra qaydalar daxildir", - deyə sözügedən qurumun mətbuat xidmətinin bəyanatında bildirilib. Bu genişmiqyaslı "islahatlar kompleksi"nin 2015-ci ildən "inkişaf" etdirildiyi bildirilir. Pakt həmçinin sığınacaq və ya yaşayış icazəsi verilməyən bütün şəxslərin Avropa ölkələrindən qovulması prosedurunu sadələşdirir. Bundan əlavə, Aİ ölkələrində miqrantların kvota ilə məskunlaşmasının məcburi prinsipi tətbiq edilir, lakin zəngin Aİ ölkələri qəbul olunmayan hər bir miqrant üçün Aİ büdcəsinə cərimə ödəməklə onların sayını azalda bilər. Bu tədbirlərdən əldə olunan gəlirlər Aİ sərhədlərinin və miqrasiya düşərgələrinin təchiz edilməsinə yönəldilməlidir.

Göründüyü kimi, "qoca qitə"də varlı və kasıb ölkələr arasında fərq qoyulur. Varlı ölkələrə pul müqabilində az sayda miqrant qəbul etmək imkanı yaradılır. 2015-ci ildən bəri üzərində iş aparılan bu "islahatlar" toplusu miqrantların sərhədlərdə filtrasiyası prinsiplərini təqdim edir, onların cəmiyyətdən kənarda deportasiya qaydalarını sadələşdirir. "Bu sənədin təxminən on il bloklanmasından sonra Avropa Parlamenti Aİ-nin miqrasiya və sığınacaq paktının təsdiqlənməsinə - Aİ-nin miqrasiya normalarına tam yenidən baxılmasına səs verdi. Bu edildi. Avropa miqrasiyanı nizamlı şəkildə və öz şərtləri ilə idarə edəcək", - deyə Avropa Parlamentinin iclasında iştirak edən Avropa Komissiyasının sədr müavini Marqaritis Şinas bildirib.



## Fransadan sonra Almaniya

Avropada milli səviyyədə artan miqrasiyanın qarşısını almağa yönələn qanun qəbul edən ölkələrdən biri Fransa oldu. Bu ölkədə etirazlarla qarşılanan müvafiq qanun ötən ilin sonlarında qəbul edilib. Verilən məlumatlara görə 2023-cü ildə qanunları pozan 4,5 mindən çox miqrant Fransadan çıxarılıb. Bu, bir il əvvəlki göstərici ilə müqayisədə 30 faiz çoxdur.

Fransanın ardınca Almaniya da miqrantlara qarşı mübarizəni sərtləşdirməyə qərar verib. "Almaniya hakimiyyəti ölkədə olmaq hüququ olmayan şəxslərin ölkədən çıxarılması üçün bütün mümkün tədbirləri görməlidir". Bunu Almaniya Kansleri Olaf Şolts Solingen şəhərində baş verən terror aktından sonra çıxışı zamanı deyib. Kansler qeyri-qanuni miqrantların deportasiyasını gücləndirəcəyini vəd edib: "Biz mümkün olan hər şeyi etməliyik ki, ölkəmizdə belə hadisələr baş verməsin".

Siyasətçi onu da bəyan edib ki, ölkə hakimiyyəti növbəti dəfə silah gəzdirmə qaydalarını, xüsusən də bıçaqla bağlı qaydaları sərtləşdirəcək. Qeyd edək ki, Solingendə avqustun 23-də baş verən hücum nəticəsində 10-dan çox adam yaralanıb. Terror aktını törədənin bir neçə il əvvəl Almaniyaya gəlmiş qaçqın olduğu üzə çıxıb. Lakin o, Almaniyadan sığınacaq üçün icazə ala bilməyib.

Eyni zamanda, Almaniyada Ukraynadan olan qaçqınlara da münasibətin dəyişdiyi müşahidə edilir. Almaniyanın bəzi federal əyalətlərinin baş nazirləri ukraynalı qaçqınlara müavinətlərin ödənilməsinə yenidən baxılmasının tərəfdarıdırlar. Bu barədə "Bild" qəzeti məlumat yayıb. Brandenburqun Baş naziri Ditmar Voydke bu dəstəyin zamanın ruhuna uyğun olub-olmadığına şübhə edib. Bildirib ki, digər qaçqınlar "Sığınacaq axtaranların müavinətləri haqqında" qanuna əsasən ayda təxminən 460 avro aldığı halda, ukraynalılar vətəndaş müavinəti (ayda 563 avro) alırlar.

D.Voydke ilə yanaşı, Saarın Baş naziri Anke Relinger də ukraynalı qaçqınlara müavinətlərin verilməsinə müsbət yanaşmır. Saksoniyanın rəhbəri Maykl Kreçmer isə ukraynalıların mülki müavinətləri almağa davam edib-etməməsi barədə düşünməyə çağırıb. O, Ukraynadan olan qaçqınların 30 faizdən azının Almaniyada işlədiyini vurğulayıb. Onun sözlərinə görə, bu, Almaniyada müəyyən edilmiş qaydaların səhv olduğunu göstərir.

*Mübariz FEYİZLİ*

# Tanrının qoşduğu Yusif dastanı

## Tomas Mannın "İosiflə qardaşları" roman-tetralogiyası haqqında

**əvvəli ötən sayımızda**

Rahil də bu vədələr ağırayaq olur. Körpəsini səfər üstə dünyaya gətirən qadın onun üzünü görər-görməz dünyadan köçür. Atası kiçik oğluna Veniamin adı verir. Rahili yol qırağında basdırıb yola davam eləyirlər. İakovun Liyadan olan böyük oğlu Ruvim atasının kənizi Valla ilə zina eləyir. İosif bunu atasına xəbər verəndə İakov gözünün ilkini lənətləyir. Bundan sonra böyük qardaşı İosifə düşmən kəsilir.

On yeddi yaşına qədər İosif qardaşlarıyla mal-qoyun otarır, bununla yanaşı İakovun köləsi Yeliezerdən dərs alır, elm, bilik öyrənir. O, böyük qardaşlarından həm gözəl, yaraşıqlı, həm də ağıllı, savadlı olur, bu səbəbdən atası da ona xüsusi rəğbət bəsləyir. İosif yalnız özündən kiçik tək qardaşıyla, yəni doğma qardaşı Veniaminlə dostluq eləyir, onun qayğısına qalır, ögey qardaşlarınınsa səmimi nifrətini qazanır. İakov anasının toy fatasını ona bağışlayanda qardaşları bir az da qıcıqlanırlar. İosif tez-tez qəribə yuxular görür, yuxusuna girir ki, göydə günəş, ay, ulduzlar, yerdə də qardaşları, bütün nəsli ona sitayiş eləyir. Yuxularını danışdıqca qardaşlarının ona nifrəti kükrəyib daşır, onun hər sözü-hərəkəti on böyük qardaşında qıcıq doğurur. Yuxulardan biri qardaşları necə hiddətləndirirsə, İakov yuxunun "müəllifini" cəzalandırmağa məcbur qalır, bununla belə heysiyyəti zədələnmiş qardaşlar sürülərini çəkib Şekem vadisinə qədər uzaqlaşırlar.

***

Az sonra İakovun hirsi soyuyur, İosifi qardaşlarından xəbər tutmağa göndərir. İosif atasından xəbərsiz anasının fatasını da götürür ki, onunla qardaşlarına acıq-qıcıq versin. Onu alışıb-yanan fatada görəndə qardaşların səbri gerçəkdən tükənir, paxıllıq mərəzi onların başına vurur, İosifi didib parçalamaqdan özlərini güclə saxlayırlar. İş o yerə gəlib çatır ki, qardaşları əl-qolunu sarıyıb onu qurumuş su quyusuna atırlar, özləri də tez o yerdən uzaqlaşırlar ki, İosifin sümüyə işləyən fəryadını eşitməsinlər.

Üç gün sonra oradan keçən tacirlər İosifi quyudan çıxarırlar. Onlar yolda İosifin qardaşlarıyla rastlaşırlar. Qardaşlar İosifi özlərinin köləsi kimi qələmə verib deyirlər ki, onu ləyaqətsiz davrandığına görə cəzalandırıblar. Sonra İosifi sərfəli qiymətə tacirlərə satırlar. Ardınca da İosifin anasından qalma fatasını qoyun qanına bulayıb atalarına göndərirlər ki, bəs, atacan, sənin sevimli oğlunu səhrada vəhşilər yedi, onun üzünü bir daha görməyəcəksən. İakov elə bir dərdə düşür ki, ona toxtaqlıq verməyə gələn on oğlundan heç birinin üzünə baxa bilmir, hərçənd onların əməlindən hələ xəbəri yoxdur. İosifsə bu zaman taleyinin yedəyində yeni həyata doğru gedə-gedə onu satın almış sahibini kamalıyla necə heyrətləndirirsə, ağası onu Misirdə varlı-hallı bir əyanın evində qulluğa düzəldəcəyinə söz verir.

Tacir sözünün üstündə durur, Misirin paytaxtına çatanda İosifi Petepra adlı saraya yaxın dövlətli bir əyana satır. Nökər-naibin qısqanclığına baxmayaraq İosif Petepranın evində tezliklə hörmət qazanır, ağlı, savadı sayəsində işlər müdirinin yardımçısı vəzifəsinə, yaşlı müdir öləndən sonra isə onun yerinə təyin olunur. Burada o, tam yeddi il vicdanla, namusla xidmət göstərir - ta zənən məkrinə ilişənə, qadın felinə düşənə qədər yeddi il. Evin xanımı Mutem-enetin ağasına sədaqətli İosifi yatağına çəkmək planı baş tutmayanda qadın həm Şərqdə, həm də Qərbdə kişi gözəlliyinin rəmzi sayılan gənci şərləyir, İosifi özünə sataşmaqda, ona təcavüz eləməyə cəhd göstərməkdə suçlayır, ərini, ev əhlini, divan-dərəni inandırmaqdan ötrü yalançı sübutlar qondarır. Fəqət İosif ağasının qarşısında özünə bəraət qazandırmağa çalışmır da, qədərinə boyun əyib dinməzcə zindana getməyi üstün tutur.

***

Bir gün həmin zindana fironun çörəkçisiylə saqisi də salınır, onlar padşaha sui-qəsd hazırlamaqda ittiham olunurlar. Hökmün icrasına üç gün qalmış çörəkçi də, saqi də yuxu görür, hər ikisi İosifdən yuxusunu yozmağı iltimas eləyir. İosif onları dinləyəndən sonra deyir ki, çörəkçi edam olunacaq, amma saqi bağışlanacaq. Dediyi kimi də olur, saqi türmədən buraxılanda İosif ondan fironun yanında adını anmasını rica eləyir. Saqi söz versə də, azadlığa çıxandan sonra verdiyi vədi unudur. Tezliklə qoca padşah ölür, taxta onun oğlu Exnaton çıxır. Bir gün gənc firon yuxusunda yeddi kök, yeddi də arıq inək görür, saray əhli nə qədər baş sındırsa da, padşahın yuxusunu yoza bilmir. Yalnız bu vaxt İosif saqinin yadına düşür. Onu zindandan çıxarıb fironun hüzuruna gətirirlər. İosif deyir ki, qarşıda ölkəni yeddi bərəkətli il gözləyir, ancaq ondan sonrakı yeddi ildə quraqlıq, aclıq olacaq, ona görə də çətin keçəsi illərə bəri başdan hazırlıq görülməli, taxıl ehtiyatı toplanmalıdır. İosifin ağlı-kamalı, nitqi fironun xoşuna gəlir, padşah onu özünə vəzir götürür.

İosif yeni vəzifəsində etimadı tam doğruldur, torpaq islahatı aparır, əkinçiliyin inkişafını görünməmiş səviyyəyə qaldırır. Başqa sözlə, mal-davar içində böyümüş çoban oğlu təsərrüfatın daha təkmil mərhələsinə, tarixi inkişafın növbəti stadiyasına qədəm qoyur. Burada onun həyatı, varlığı tamam yeni məzmun qazanır. Dar qəbilə çərçivəsini aşan İosif misirli qızla evlənir (halbuki bacıları yad tayfanın oğluna ərə getdiyinə görə qardaşları nə hoqqalar çıxarmışdılar), ondan iki oğlu olur. Misirin əzizi, fironun sevimli vəziri çoxlu nökər-naibi olan abad evdə yaşayır. Xalq onun başına and içir. Aclıq illərində Misir dövləti qonşu ölkələrə, qövmlərə də çörək verir, bu hesaba dövlətin həm xəzinəsi dolur, həm də dost-düşmən yanında nüfuzu, etibarı artır.

Misirə azuqə dalınca gələn hər kəsi İosifin göstərişiylə qeydiyyata alırlar. O bilir ki, bir gün qardaşlarının da yolu buradan düşəcək. Quraqlığın ikinci ilində İakov gerçəkdən oğlanlarını zəhləsi gedən dövlətin ayağına göndərməyə məcbur olur. Həmin vaxta qədər o, övladlarının hamısını artıq evləndirmişdi, İsrail oğulları törəyib artıb yetmiş nəfərə çatmışdı, bu qədər adamı yedirib doyurmaq asan məsələ deyildi. Qoca İakov yalnız kiçik oğlu Veniamini yanında saxlayır, çünki İosifin də iyini ondan alır.

On qardaşı hüzuruna ayaq basanda İosif özünü ələ vermir, onları yerli-yataqlı sorğu-suala çəkir, bu yolla da ata yurdundakı vəziyyətdən xəbər tutur. Sonra onlardan birini girov saxlayıb qalanlarını əlidolu yola salır, tapşırır ki, növbəti səfərlərində kiçik qardaşlarını da gətirsinlər. Üstəlik, onların taxıl üçün ödədiyi pulu da gizlincə kisələrinə qoydurur.

***

Sonrakı gəlişlərində Veniamin də onlara yoldaşlıq eləyir. İosif qardaşlarını evində qonaqlayır, onları yaxşıca yedirib içirir, kiçik qardaşını dizinin dibində oturdub onu xısın-xısın söhbətə tutur, yalnız ikisinə bəlli olan məsələlərdən söz salır. Onda Veniamində şübhə yaranır ki, bu adam onun itkin qardaşı İosif ola bilər.

Nəhayət, İosif özünü qardaşlarına nişan verir, onları bir-bir bağrına basır, bununla da onu ölümcül döyüb quyuya sallayan, sonra da qul adına satan qardaşlarını bağışladığını göstərir. İosif İsrail oğullarını Misirin ucqar əyalətlərindən birinə köçürməyi qərara alır, elə bir yerə ki, onların sürüləri bərəkətli otlaqlarda yaxşıca bəslənə bilsin. Firon da dostunun bu qərarını alqışlayır, uzun illərin ayrılığından sonra doğmalarına qovuşmuş İosifin sevincinə ürəkdən şərik olur. Geri qayıdan qardaşlar bu xəbəri atalarına necə çatdırmalı olduqlarını düşünürlər. Evə çatana yaxın nəvələrindən birini öyrədib İakovun yanına göndərirlər ki, kişini xoş xəbərə hazırlasın.

Qoca İakov ölməmişdən əziz oğlunu görsün deyə Misirə doğru üz qoyur. Sərhədi adlayandan sonra düşərgə salıb oğlu İudanı İosifin dalınca göndərir. Çox keçməmiş həsrətlilər qovuşurlar. Firon İosifin qardaşlarını sürülərinə çoban təyin eləyir. Beləcə, İsrail oğulları, min bir zillətlə nəsil becərmiş İakovun törəməsi Misir torpağında məskən salır. İndən belə onların xoşbəxt günləri başlanır.

İakovun ölümündən sonra ögey qardaşları Veniamini İosifə minnətçi salıb, bir zaman törətdikləri alçaq əmələ görə bağışlanmalarını diləyirlər. Veniamin onların adından İosifə ağız açıb yalvarır ki, zalım qardaşlarına kin saxlamasın. İosif sevimli qardaşının diləyini təbəssümlə qarşılayır. Onlar atalarını dədə-babalarının gömüldüyü mağarada torpağa tapşırandan sonra Misirə qayıdırlar. Romanın son cümləsi belədir: "Bununla da Tanrının İosiflə qardaşları haqqında qoşduğu misilsiz dastan sona çatır".

***

Tomas Mannın "İosiflə qardaşları" roman-tetralogiyası başdan-ayağa Tanrının sirli kombinasiyaları, insan-Allah münasibətləri haqqındadır. Müəllif Allahın planını ən incə detallarına qədər xırdalamaqla elə bil onun sirrinə vaqif olmağa, bu sirri açmağa çalışır. Yazıçının məntiqincə, insana Tanrı lazım olduğu kimi Tanrıya da insan lazımdır, çünki Tanrı yer üzündə öz planlarını insan vasitəsilə həyata keçirir. Allahla əlaqəyə girən, daha doğrusu, Allahın seçdiyi insan bu dünyada onun xəlifəsidir. Öz xəlifəsinin gözüylə özünə baxan Tanrıdan ötrü insan zəkası özünüdərk alətidir, Allah bu alətin köməyilə fasiləsiz təkamülə uğrayır. Yaradan insanı özünə bənzər, özünün surəti kimi yaradıb, öz növbəsində insan da Yaradanı öz ruhunun obrazı kimi qavrayır.

Burada yenə Hegellə Feyerbaxın başlıca konsepsiyaları arasında apardığımız müqayisə yada düşür: Hegel deyirdi ki, insan özgəsiləşmiş, özünə yadlaşmış Allahdır; Feyerbax isə deyirdi, əksinə, Allah özgəsiləşmiş, özünə yad olmuş insandır. Məncə, hər ikisi haqlıdır - əvvəl proses Hegelin dediyi istiqamətdə, yəni Allahın insanlaşması yönündə gedib, indisə Feyerbaxın göstərdiyi istiqamətdə, yəni insanın tanrılaşması yönündə gedir.

İosif Tanrının alətinə, Paskalın təbirincə desək, düşünən əsaya çevrilmək üçün çox da böyük hazırlıq, ya məktəb keçməyib. Allah onu bu dünyaya hazır gətirib, onlar ata-bala kimi iç-içə, bir-birindən ayrılmazdır. Tanrı ata övladının əlindən tutub onu diyar-diyar gəzdirir, onun timsalında öz qüdrətini, hikmətini sınaqdan keçirir. Bu yerdə sufilərin tez-tez istinad elədiyi bir hədis yadıma düşür: "Mən gizli bir xəzinəydim, özümü təsdiqlə(t)mək üçün aləmləri yaratdım".

Əslində, yer üzündə həyatın təkamülü Yaradanın özünütəsdiq prosesidir, İosif kamilləşdikcə onun allahı da, Ramiz Rövşən demiş, bir boy ucalır (ucaldıqca yedəyindəki bəndəsini də ucaldır), bu isə o deməkdir ki, Tanrının özünün də təkmilləşməyə, saflaşmağa, materiyanın buxovlarından qurtulmağa ehtiyacı var; yəni kamilləşmə, Anri Berqsonun təbirincə desək, yaradıcı təkamül sonsuz prosesdir. Başqa sözlə, həyatın fasiləsiz yaranışı prosesində Tanrı mütləq qaranlıqdan mütləq işığa, xaosdan kosmosa, demonizmdən ilahiliyə doğru nəhəng bir inkişaf yolu keçir. Bu inkişaf mütləq şəkildə materiyanın ruha yenilməsiylə başa çatmalıdır.

***

Tomas Mannın yozumunda şəxsiyyətin strukturu modernistlər arasında dəbdə olan, bu cərəyanın yaranmasına həlledici təsir göstərmiş psixoanaliz təliminin atası Ziqmund Freydin sxemindən köklü şəkildə fərqlənir. Məncə, Mannın insan, varlıq konsepsiyasını Freydin yox, Karl Yunqun təliminə bir köynək yaxın saymaq olar. Bu ontoloji konsepsiyaya görə, varlıq üç komponentdən ibarətdir: materiya, can, bir də ruh. Can da materiya kimi varlığın təməlidir, onda həyat var, ancaq bilik yoxdur.

Hələ Allahın nəzdində, dinclik xoşbəxtlik səltənətində olanda can formasız materiyaya qovuşmaq üçün ona doğru dartınıb, torpaqdan özünə qab düzəldib onu bəlli bir şəkilə salmaq, bədəni vasitəsilə cismani zövq almaq istəyib. Tanrı dərgahından enəndən sonra canın zövqü-səfası yox, əzabı, cəfası çoxalıb, çünki tərs materiya əzəli təbiətindən əl çəkib ona tabe olmaq, onun arzuladığı formanı almaq istəməyib, inadla cana müqavimət göstərib. Onda Tanrı işə qarışıb, yolunu azmış canın köməyinə gəlib. Tanrı dünyanı yaradıb, materiyanı saysız-hesabsız şəkillərə salıb, torpağa canın işinə yarayası, zövqünü oxşayası, onun artıb törəməsinə səbəb olası formalar verib.

Bundan sonra Tanrı öz varlığından, öz ilahi substansiyasından insana ruh göndərib ki, həmin ruh insanın mürgülü canını yuxudan oyatsın, canı qandırsın ki, bu dünya onun yeri deyil, canın həzzə can atmağı ən böyük günah olub, gördüyümüz bu dünya da həmin günahın nəticəsində yaranıb. Ruh materiyada dustaqlıq çəkən canı gecə-gündüz qəflətdən ayıltmağa çalışır, onu inandırmaq istəyir ki, əgər canın materiyaya əbləhcəsinə vurğunluğu olmasaydı, bu dünyanın yaranmağına da ehtiyac qalmazdı. Can bədəndən çıxan kimi formalar aləmi də dağılıb gedəcək. Ruhun əsas vəzifəsi canı ehtirasların əsirliyindən qurtarmaq, onu yenidən dinclik, xoşbəxtlik səltənətinə, Füzulinin diliylə desək, əzəli vətəninə, bəqa bəzminə qayıtmağa razı salmaqdır. Bu böyük qayıdış baş verəndən sonra fani dünyanın izi-tozu da qalmayacaq, materiya əvvəlki formasız halına dönəcək ki, onun da xoşbəxtliyi, məsudluğu bundadır.

Ruh bir növ Allahın elçisidir, onun təcəllasını biz peyğəmbərlərin, o cümlədən İosifin timsalında görürük. Yunqun təbiriylə desək, can insanın fərdi təhtəlşüurunun, ruh kollektiv şüursuzluğun obrazıdır. Ruhun missiyası yolunu azmış canları öz evlərinə - Tanrının dərgahına qaytarmaqdır. Canın materiya ilə nikahının pozulması təkcə onun özünün yox, materiyanın da azadlığa çıxması, ölümün də aradan qalxması deməkdir. Tomas Mannın baş qəhrəmanı məhz ruhun - Tanrı elçisinin, kollektiv təhtəlşüurun ifadəçisidir. "İosiflə qardaşları" romanı da ruhun ikili dünyadakı uğurlu missiyasına çəkilmiş parlaq, möhtəşəm bir illüstrasiyadır.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türkistan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Qlobal iqlim dəyişikliyinin növbəti fəsadı...



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

Qlobal iqlim dəyişikliyi hazırda bütün dünya ölkələrini narahat edən mövzulardan biridir. Bununla bağlı davamlı tədbirlər keçirilir, beynəlxalq müstəvidə müxtəlif dövlətlər arasında müzakirələr aparılır. Məlumdur ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə hər zaman özünəməxsus fəaliyyəti ilə seçilib. Ölkəmiz beynəlxalq tədbirlərin keçirildiyi unikal məkandır. Bu il isə Azərbaycan ən böyük beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək.

COP29-un ölkəmizdə keçiriləcəyi ərəfədə paytaxtda davamlı olaraq ekologiya və ətraf mühitin mühafizəsi ilə bağlı mühüm tədbirlər keçirilir. Belə tədbirlərdən biri də dünən baş tutub. “Su İdarəetmə Sistemlərinin iqlimə Dayanıqlı Kənd Təsərrüfatında Rolu: COP29 Dəyirmi Masa Müzakirələri” adlı tədbirdə bütün dünyada aktual mövzuya çevrilən qlobal iqlim dəyişikliyi və onun yaratdığı fəsadlar müzakirə edilib.

**Su ehtiyatlarımız 15 faiz azalıb**

Tədbirdə çıxış edən Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov bildirib ki, qlobal iqlim dəyişiklikləri nəticəsində Azərbaycanda su ehtiyatları son illərdə təqribən 15 %-dən çox azalıb. Onun sözlərinə görə, təəssüf ki, növbəti illərdə də proqnozlar daha kəskindir və azalma davam edəcək: “Bu dəyişikliklər həm kənd təsərrüfatı bitkilərinə, heyvandarlığa mühüm təsir göstərir. Bu baxımdan bitkiçilik və heyvandarlıq sahələrində iqlim dəyişikliklərinə uyğunlaşdırmaq məqsədi ilə konkret fəaliyyətlər həyata keçirilməlidir”.

**Hansı tədbirlər görülür?**

V.Kərimov bildirib ki, Azərbaycanda su itkilərinin qarşısının alınması məqsədi ilə suvarma kanallarının yenidən qurulması və bərpası, içməli su mənbələrinin yaradılması, həmçinin su ehtiyatlarının artırılması üçün yeni su anbarlarının yaradılması istiqamətində işlər həyata keçirilir. Onun sözlərinə görə, buna baxmayaraq, suya tələbatın artması fonunda iqtisadiyyatın bütün sahələrində qənaətedici su texnologiyalarından istifadəni, suya tələbatı tullantı sularının təmizlənərək istifadəsi yolu ilə ödənilməsi mühüm əhəmiyyət kəsb edir.

O, qeyd edib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən yaşıllaşdırma işləri çərçivəsində əsas su mənbəyi kimi təkrar emal olunan sulardan geniş istifadə edilir: “Bu həm içməli su ehtiyatlarının qorunması, həm də suların təkrar dövriyyəsini təmin etməklə sudan səmərəli istifadəyə gətirib çıxarır”.

**Uzunmüddətli aşağıkarbonlu inkişaf strategiyası...**

Nazir müavini qeyd edib ki, hazırda Paris Sazişinə uyğun olaraq Azərbaycan üzrə Yenilənmiş Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədi və uzunmüddətli Aşağıkarbonlu İnkişaf Strategiyası (LTS) hazırlanmaqdadır. O, bildirib ki, kənd təsərrüfatında iqlim dəyişiklikləri ilə mübarizə aparmaq və onun təsirlərini azaltmaq üçün kənd təsərrüfatı istehsalçılarını bu mövzuda məlumatlandırmaq və istehsal vərdişlərini mövcud iqlim reallıqlarına uyğunlaşdırmaq lazımdır: “İqlim dəyişikliklərinin mənfi təsirlərinin qarşısını yalnız uyğunlaşma və azaltma çərçivəsində hazırlanacaq strategiyalarla almaq mümkündür”.

V. Kərimov həmçinin qeyd edib ki, iqlim dəyişmələri probleminin həlli genişmiqyaslı və uzunmüddətli tədbirlər kompleksinin icrasını tələb edir: “Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində qlobal iqlim dəyişmələrinə təsirləri azaltmaq məqsədilə təşəbbüslərə töhfə olaraq, 2050-ci ilə qədər istixana qazı emissiyalarının xalis payının 40 %-ə qədər azaldılmasını şərtli hədəf kimi müəyyən edilib. Azərbaycan bu il, həmçinin qlobal metan emissiyalarının azaldılması üzrə öhdəlikləri nəzərdə tutan “Qlobal Metan Vədi” təşəbbüsünə qoşulub”.

**Su ehtiyatlarının uçotu Qarabağdan başlayacaq**

Tədbirdə çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdir müavini Rafiq Verdiyev bildirib ki, Azərbaycanda Elektron Su Təsərrüfatı İnformasiya Sisteminin təkmilləşdirilməsi ilə bağlı işlər davam etdirilir. Onun sözlərinə görə, artıq su balansı sistemi təhvil verilib: “Su ehtiyatlarının faktiki vəziyyəti ilə bağlı uçotun aparılmasını istəyirik. İlk növbədə işğaldan azad edilmiş ərazilərdə proqramı işləmişik. Demək olar ki, bütün çaylarda avtomat stansiyaların məlumatları əsasında istənilən vaxt vəziyyəti qiymətləndirmək mümkündür”.

**Kür çayı ilə bağlı müqavilə imzalanacaq**

R.Verdiyev vurğulayıb ki, Azərbaycan Gürcüstanla Kür çayında su ehtiyatları və ondan istifadədə məlumatların mübadiləsi ilə bağlı müqavilə imzalamaq istəyir: “Müqavilənin tez bir zamanda imzalanması hədəflənir. Kür çayında qar ehtiyatları, hövzədə olan vəziyyət bizim üçün önəmlidir. Biz daha dəqiq biləcəyik ki, Kür çayının Azərbaycandan yuxarı hissələrində yaz dövründə nə qədər su gözlənilir. Bu, sudan istifadəçilər üçün dəqiq proqnoz verməyə imkan verəcək”.

*Yeganə BAYRAMOVA*

# Kamera arxasından əbədiyyətə...

Ta qədimdən başıbəlalı Azərbaycanımız çox müharibələrə, savaşlara meydan olub. Vətənin bir qarış torpağını belə canından, qanından üstün bilən xalqımız düşmənlə mübarizədə heç zaman güzəştə getməyib, qurbanlar hesabına öz ədalətini özü bərpa edib.

Hərb sahəsində öz gücünü, canlı qüvvəsini daim artıran vətənimizdə yeri gələndə bütün peşə sahibləri öz işləri, fəaliyyətləri ilə ordumuza dəstək olub, dövlətimizin yanında olub. Ona görədir ki, bu gün şəhidlərimizin arasında ayrı-ayrı peşə sahibləri, müxtəlif yaşdan olanlar da az deyil. Xüsusən, birinci və ikinci Qarabağ müharibələri millətimiz üçün ağır, amma şərəfli imtahan idi. Fəxr edə bilərik ki, biz bir xalq olaraq bu ağır imtahanlardan alnıaçıq, üzüağ çıxmağı bacardıq. Əlbəttə, daha çox ordumuzun, canını, qanını torpaqlarımız uğrunda əsirgəməyən şəhidlərimizin, qazilərimizin sayəsində.

Bir müharibə zamanı cəbhədə gedən savaşla yanaşı, baş verənlərin çəkilib dünyaya çatdırılması, sağlam informasiya savaşının aparılması da çox önəmlidir. Bu, həm də tarixi həqiqətlərin olduğu kimi gələcək nəsillərə ötürülməsi üçün lazımdır. Bu sahədə də Azərbaycan həm şanslı, həm də güclü dövlətdir. Çünki onun heç nədən qorxmadan kamerası, mikrofonu, qələmi ilə cəbhəyə üz tutan, ən qaynaq nöqtələrdən belə xəbər hazırlamaq peşəkarlığına malik olan jurnalistləri var. Həmin jurnalistlərdən bu uğurda şəhid olanları da az deyil. Həm Birinci Qarabağ müharibəsində, həm də 44 günlük Vətən müharibəsində mətbuatımız da öz itkiləri ilə sarsıldı.

Bu gün- 29 avqust iki şəhid jurnalistimizin doğulduğu gündür. Onlardan biri Birinci Qarabağ müharibəsində, o biri isə Vətən müharibəsində şəhadətə ucalıb. Nə təsadüfdür ki, eyni gündə doğulan hər iki qəhrəman da operator cəbhə bölgəsində xidmət göstərirdilər.

Çingiz Mustafayev... Bu ad hər bir azərbaycanlıya çox yaxşı tanışdır. 1990-cı illər Qarabağ müharibəsində hələ dünyaya gəlməyən, ya da olanları anlamayacaq qədər kiçik olan biz və bizdən sonrakı nəsillər Xocalı faciəsini, Qarabağın müxtəlif yerlərində gedən qanlı döyüşləri onun lent yazıları ilə izləmiş, dünyaya göstərmişik.

Bu gün Azərbaycanın Milli Qəhrəmanı, telereportyor Çingiz Mustafayevin doğum günüdür. Yaşasaydı 64 yaşını qeyd edəcəkdi. Amma o isə bunun yarısını, 32 ilini yaşayıb qəhrəman kimi şəhidlik zirvəsinə ucalmağı seçdi.

Çingiz Fuad oğlu Mustafayev 1960-cı il avqustun 29-da hərbçi ailəsində anadan olub. 1983-cü ildə Azərbaycan Tibb İnstitutunu bitirib. 1985-ci ildə yaratdığı “Cəngi” birliyindəki fəaliyyəti ilə Azərbaycan gənclərinin lideri səviyyəsinə yüksəlib.

Birinci Qarabağ müharibəsi başlayanda Çingiz jurnalistika sahəsinə üz tutur və 1991-ci ildən Azərbaycan Dövlət televiziyasında reportyor kimi çalışmaqa başlayır. Ancaq yalnız Azərbaycan miqyasında fəlaiyyət göstərməklə kifayətlənmir. Belə ki, reportajları informasiya blokadasında olan Azərbaycan haqqında gerçəkliklərin Amerika və Avropanın aparıcı teleagentlikləri və televiziyalarına yol tapır. Dövlət televiziyasında mövcud olan senzura və ciddi yasaqlar Çingiz Mustafayevi geniş fəaliyyət imkanlarından məhrum etdiyindən Çingiz əlahiddə olaraq 215 kl studiyası kimi muxtar qurumun yardılmasının təşəbbüskarı və yaradıcısı olur. Onun reportajları bir qayda olaraq cəbhədən olduğuna görə 215 kl studiyasını da tamaşaçılar məhz müharibədən məlumat verən telequrum kimi qəbul edirdilər.

Çingiz Mustafayev Ermənistan-Azərbaycan müharibəsində döyüş gedən bütün bölgələrdən çəkdiyi operativ reportajları, xəbərləri, siyasi proseslərlə bağlı informasiyaların müəllifi, hətta bir əlində silah, birində kamera torpağını müdafiə edən əsgər, əsgərləri döyüşə səsləyən komandan kimi Azərbaycanın və bütün türk dünyasının tarixinə öz adını qızıl hərflərlə yazdırdı. Amma bütün bunlarla yanaşı, o, daha çox Xocalıda çəkdiyi filmlə tanındı, yaddaşlara həkk olundu. Əsrin faciəsi olan Xocalı soyqırımını hər vəchlə üzərindən atmağa çalışan Ermənistan Çingizin həqiqətləri olduğu kimi əks etdirən filmi qarşısında aciz qaldı.





Nə yazıq ki, Çingizin telejurnalist kimi fəaliyyəti cəbhədə yarandığı kimi, cəbhədə də söndü. O, 1992-ci ilin iyun ayının 15-də Ağdamın Naxçıvanik kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsindən şəhadətə ucaldı. Hətta döyüşçü jurnalist son nəfəsində belə kameranı söndürmədi, çəkdiklərinin, lentin yaddaşına həkk etdiklərinin onun adını ölümündən sonra ölkəmizin tarixinə həkk edəcəyinə əminliklə...

Onun bu fədakarlığı dövlətimiz və xalqımız tərəfindən hər zaman ucalıqla qiymətləndirildi. O, 1993-ci ildə Azərbaycanın Milli Qəhrəmanı adını aldı.

Çingiz Mustafayevin Azərbaycan mətbuatında ucaltdığı heykəl ondan sonra gələn çox jurnalistə örnək oldu. Çoxları onun yolunu getmək, onun kimi Azərbaycan tarixində, mətbuatında iz qoymaq arzusu ilə üz tutdular jurnalistikaya. Amma təbii ki, qəhrəman olunmur, qəhrəman doğulur.

44 günlük Vətən müharibəsində daha bir operator müharibədə baş verənləri bütün dünyaya çatdırmaq, düşmənin hiyləgərliyini olduğu kimi göstərmək üçün ən təhlükəli zonalarda reportaj hazırlayarkən həmin hiylənin qurbanına çevrildi.

Yaşasaydı bu gün 35 illik yubileyini qeyd edəcəkdi şəhid jurnalist Sirac Abışov. Lakin o da həmkarı kimi cəmi 32 yaşında şəhadətə ucaldı.

Azərbaycan Televiziyasının operatoru Sirac Abışov 29 avqust 1989-cu ildə Qubadlı rayonunun Dondarlı kəndində doğulub. Çingizin çəkib bu günümüzə miras qoyduğu Birinci Qarabağ müharibəsinin körpə qurbanlarından biridir Sirac. Hələ kiçik yaşlarında o, müharibə zamanı ailəsi ilə birlikdə evlərindən didərgin düşmüş, Sumqayıt şəhərində yaşamağa başlamışdı.

44 günlük Vətən müharibəsindən sonra 30 il boyunca düşmən təcavüzünə məruz qalan, minalarla tələlər hazırlanan torpaqlardakı vəziyyəti çəkib göstərmək üçün ən təhlükəli zonalarda çəkilişlər aparan Sirac 4 iyun 2021-ci ildə Kəlbəcər rayonunun Susuzluq kəndinə gedən yolda həmkarı Məhərrəm İbrahimovla birlikdə minaya düşərək şəhid olub. 5 iyunda Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib.

“Sərhədsiz Reportyorlar” Təşkilatı (SRT) 2021-ci ildə vəzifə borcunu yerinə yetirərkən öldürülən jurnalistlərin siyahısına Məhərrəm İbrahimovun və Sirac Abışovun adını salıb.

Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 14-də imzaladığı Sərəncamla işğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş Abışov Sirac Abış oğlu “3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Arzu Rəhimovun əmri ilə Sirac Abışov “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medalı ilə təltif edilib.

Doğulduqları gün kimi şəhadət qismətləri və şəhadət yaşları ilə də oxşar ömür yaşayan şəhid jurnalistlərimizi sayğı və sevgi ilə anır, ruhlarına əbədi dinclik diləyirik!

**Unutmuruq! Unutdurmuruq!**

**Allah rəhmət eləsin!**

*Şahanə MÜŞFİQ*

# Bəşəriyyətin sonunu gətirə bilən təhdid...

## Nüvə Sınaqları əleyhinə Beynəlxalq Fəaliyyət Günüdür

Bu gün nüvə silahları dünyadakı hər kəsi narahat edən mövzudur. İstifadə edildiyi ilk gündən dağıdıcı və məhvedici gücə malik olan nüvə silahı 21-ci əsrin ən böyük təhlükəsi kimi dəyərləndirilir. Belə ki, insanlara və təbiətə ziyan verən bu silah bütün dünya üçün “ən qorxulu kabusdur”. Tarixə nəzər yetirdikdə görürük ki, nüvə silahından istifadənin qarşısının alınmasına yönələn bir sıra addımlar atılıb. Amma təəssüf ki, hələ də “nüvə təhdidi” öz aktuallığını qoruyub saxlayır.



Xüsusilə, son illərdə bu təhdid yenidən aktiv şəkildə ortaya çıxıb. Qlobal güclərin savaşlarda tam üstünlük qazanmaq üçün nüvə silahı ritorikasına müraciəti isə gündən-günə artır və bu qəbuledilməzdir.

Bəşəriyyəti məhv etməyə nail olan bu real təhlükə barədə söhbət açmağımızın məqsədi var. Belə ki, avqustun 29-u Nüvə sınaqları əleyhinə beynəlxalq fəaliyyət günü kimi qeyd olunur. Bu gün 2009-cu il dekabrın 2-də BMT Baş Məclisinin 64-cü sessiyasında təsis edilib. Təhlükəsiz dünya yaradılması üçün nüvə sınaqlarının dayandırılması məsələsində BMT-nin, dünya dövlətlərinin, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının səylərinin fəallaşdırılması zəruridir.

BMT-nin müvafiq qətnaməsinin preambulunda deyilir: “Nüvə sınaqlarının insanların həyatı və sağlamlığı üçün məhvedici təsirlərinin qarşısını almaq üçün bu cür sınaqlara son qoyulmalıdır”.

**İlk atom bombası**

İlk atom bombası İkinci dünya müharibəsinin sonunda ABŞ-da hazırlanıb. Atom bombası havada partladıla bilər. 1945-ci ilin iyulunda ABŞ atom bombasını sınaqdan keçirdikdən sonra avqustun 6-da Yaponiyanın Xirosima və avqustun 9-da Naqasaki şəhərlərinə partlayış gücü 20 min ton trotil partlayışına ekvivalent olan 2 bomba atmışdı. Xirosimada 200 minə yaxın adam ölüb, sonralar isə şüa xəstəliyindən və yaralanmadan daha 35 min adam həyatını itirib.

**9 ölkədə nüvə silahı var**

Bu gün nüvə silahına malik 9 dövlətin adını çəkmək olar ki, onlardan 5-i rəsmi, 4-ü isə qeyri-rəsmi nüvə dövlətləri hesab olunur. Rəsmi nüvə dövlətləri: ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindir. Qeyri-rəsmi nüvə dövlətləri: Hindistan, Pakistan, İsrail və Şimali Koreyadır. BMT-nin təşəbbüsü ilə 12 iyun 1968-ci ildə imzalanan “Nüvə silahının yayılması barədə müqavilə”yə əsasən, 1967-ci il yanvarın 1-nə qədər nüvə sınaqları keçirən ölkələr nüvə dövlətləri hesab olunurlar.

Ən böyük problem isə bu silahların miqdarının düzgün açıqlanmamasıdır. Məsələn, mənbələrin birində hazırda Rusiyanın 6500, ABŞ-ın isə 3 mindən çox nüvə başlıqlı raketinin mövcud olduğu qeyd edilir. Stokholm Beynəlxalq Sülh İnstitutu (SIPRI) və Amerika Elm Adamları Federasiyasının (FAS) 2019-cu ildə birgə apardığı araşdırmalara görə də dünyada 9 ölkədə nüvə silahı var.

**Nüvə silahından istifadə olunarsa...**

Nüvə silahı və nüvə hücumları ilə bağlı müxtəlif məlumat resurslarında olduqca maraqlı və insanı qorxuya salan informasiyalar mövcuddur. Maraqlı məlumatlardan biri də odur ki, 1983-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə görə, hər bir həkim nüvə silahı tətbiqindən sonra insanlara yardım və müalicənin prinsiplərini bilməlidir. ÜST nüvə silahlarının fəsadlarını insan orqanizmi üçün faciəvi və geri dönüşü olmayan məhv prosesi kimi qiymətləndirir. Bu elə bir müharibədir ki, heç bir dərman, sarğı və əməliyyat, heç bir yüksək səviyyəli tibb onun yaralarını sağalda bilməz...

Əgər nüvə hücumu olarsa, həkimlər zərərçəkənlərə heç bir kömək edə bilməyəcək. Müasir tibb hər nə qədər inkişaf etsə də, nüvə partlayışının fəsadları qarşısında çox acizdir. Bir anlıq təsəvvür edək ki, nüvə silahı atılan region və radiusda şəhərlərdə xəstəxanalar, bütün binalar yanacaq, ölən insanlar içində həkimlər, tibb işçiləri də olacaq. Regiona nüvə silahının atılması həm də orda olan bütün həkim, tibb işçisinin məhvi deməkdir.

Ümid edək ki, bəşər tarixində heç vaxt nüvə silahından istifadəyə ehtiyac olmayacaq və bütün dünya xalqlarının amalı, məramı bir olacaq. O amal və məram ki, bəşəriyyətin xoşbəxtlik və rifah içində yaşamağına zəmin verəcək...

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4871
Sifariş: 1946
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova